QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 090 (5562) 11 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# İlham Əliyev: "Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır"

*Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib*

Səh 5



Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq



3

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib



2

Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib



7

Əli Həsənov: "ABŞ Helsinki Komissiyası Azərbaycana qarşı "xüsusi marağı" ilə fərqlənir"



7

Yeni Azərbaycan Partiyası internat məktəbinin sakinləri üçün toy mərasimi təşkil edib



8

Ümummilli lider Heydər Əliyevə həsr olunmuş rəsm sərgisinin açılışı olub



12

7

Siyavuş Novruzov: "Heydər Əliyev bütün bəşəriyyət üçün çalışıb"



12

"Azərbaycan" nəşriyyatında şahmat turnirinin qalibləri mükafatlandırılıb



11

Milli Məclisdə ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə bağlı xüsusi iclas keçirilib



# Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib

*Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib*







***İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli motor yağlarının 85-90 faizi Azərbaycanın payına düşüb.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir. Bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır. 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər. Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

## Prezident İlham Əliyev "DP World" şirkətinin prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "DP World" şirkətinin prezidenti Sultan Əhməd bin Sulaimi qəbul edib. AZƏRTAC xəbər verir ki, Sultan Əhməd bin Sulaim Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı Şeyx Məhəmməd bin Raşid Al Məktumun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından məmnunluğunu ifadə edən Sultan Əhməd bin Sulaim bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu və beynəlxalq əməkdaşlıq işinə mühüm töhfə verdiyini vurğuladı. O, hər dəfə Azərbaycana səfəri zamanı ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu, Bakıda xarici turistlərin sayının sürətlə artdığını müşahidə etdiklərini dedi.

Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin önəmini qeyd etdi və bunu beynəlxalq nəqliyyat daşımalarında ölkəmizin rolunun artmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı nəqliyyat infrastrukturu sahəsində Azərbaycanın son illər böyük uğurlar qazandığını dedi. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, ölkəmizdə turizmin inkişaf etdirilməsi sahəsində də ardıcıl addımların atıldığını, Azərbaycana müxtəlif ölkələrdən, o cümlədən Birləşmiş Ərəb Əmirliklərindən gələn qonaqların sayının durmadan artdığını qeyd etdi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı Şeyx Məhəmməd bin Raşid Al Məktuma salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Raşid Al Məktuma çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

# Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq

*Prezident İlham Əliyev Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib*



***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür.***

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan" deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.



Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin girdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum gündə Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı. Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.





Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib

***Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.***





Dövlətimizin başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq 2008-2018-ci illərdə ölkənin əsas magistral avtomobil yolları boyunca 4443 hektar sahədə salınan yaşıllıqlarda 5 milyon 436 min müxtəlif növ ağac və kol bitkiləri əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə üstünlük verilib.



Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin doğum günündə Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində Ekologiya və Təbii Sərvətlər Nazirliyi “Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu” Açıq Səhmdar Cəmiyyətinin tinglik sahələrində kökübağlı şəraitdə yetişdirilən 7 minə yaxın ağac əkildi.

Qeyd edək ki, ekologiyanın və ətraf mühitin mühafizəsi Azərbaycan dövlətinin qarşısında duran əsas istiqamətlərdən biridir. Ölkəmizin zəngin flora və faunasının qorunması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bütün dövrlərdə çox böyük işlər görülüb. Ulu Öndər tərəfindən əsası qoyulan ənənəni bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan



milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Prezident İlham Əliyev tərəfindən 2010-cu ilin ölkədə “Ekologiya İli” elan edilməsi bunun bariz nümunəsidir.

Dövlətimizin başçısı və birinci xanım ağacəkmə aksiyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.

Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki “Ağ şəhər” və digər ərazilərdə həyata keçirilən mühüm layihələr nəticəsində neft çöküntüləri təmizlənib. Hazırda bu ərazilər paytaxtın yeni yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlətimizin başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığının qorunması.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Qeyd edək ki, müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edib. Bu gün vətəndaşların ağacəkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

# “Azərbaycan artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib”

## *Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının prezidentini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsia Milanı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Santiaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransında iştirakından böyük məmnunluq hissi keçirdiyini qeyd edərək tədbirdə 65 ölkədən 400-dən artıq nümayəndənin iştirakının böyük önəm daşıdığını vurğuladı. O bildirdi ki, bu nümayəndələr Beynəlxalq Limanlar Assosiasiyasına üzv olan və dünyanın dəniz yük daşımalarının təxminən 70 faizini əhatə edən limanları təmsil edirlər.

Tədbirin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Santiaqo Qarsia Mila paytaxtımızda gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Bakının artıq beynəlxalq ticarət qovşağına çevrildiyini deyən qonaq böyük İpək yolu, “Bir kəmər, bir yol” layihələrində Azərbaycanın önəmli rol oynayacağına ümidvar olduğunu bildirdi. Santiaqo Qarsia Mila Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının Bakıda keçirilməsinin əlamətdar hadisə olduğunu və tədbirin gələn il Çində təşkil ediləcəyini dedi.



Prezident İlham Əliyev Beynəlxalq Limanlar Assosiasiyasının Bakıda keçirilən illik konfransının önəminə toxunaraq xeyli sayda ölkənin nümayəndələrinin burada iştirakından məmnunluğunu ifadə etdi. Tədbirin keçirilməsi üçün Bakını seçdiklərinə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ölkəmizdə digər sahələr kimi, nəqliyyat sektorunda da böyük uğurların əldə olunduğunu məmnunluq hissi ilə qeyd edərək Azərbaycanın artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrildiyini dedi. Ölkəmizin coğrafi mövqeyinin bu işdə rolunu qeyd edən Prezident İlham Əliyev bunun həm də Azərbaycanda müasir nəqliyyat infrastrukturuna qoyulan böyük həcmdə investisiyanın nəticəsi olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu, özünü təkcə Ələtdəki Yeni Bakı Limanında deyil, müasir dəmir və avtomobil yolları, eləcə də hava limanlarının inşasında da göstərir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihələrinə toxunan dövlətimizin başçısı həmin layihələrin icrası nəticəsində bu istiqamətdə Azərbaycan ərazisindən mühüm beynəlxalq daşımaların həyata keçiriləcəyini qeyd etdi.

Nəqliyyat infrastrukturunun bu gün Azərbaycanda çox yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev Yeni Bakı Limanının birinci fazasının tam şəkildə yaxın zamanlarda başa çatacağını dedi və bütün bunları Azərbaycanın nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığa verdiyi töhfə kimi dəyərləndirdi.

# İlham Əliyev: "Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır"

*Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib*

***Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər. Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində bildirib ki, Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr edib, bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət edib:

"Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.

Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. On üç il ərzində yorulmaz fəaliyyət nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Əgər sovet dövründə - 1980-ci illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı.

Onun gördüyü işlər, prinsipiallığı, şəxsi keyfiyyətləri, əlbəttə ki, sovet rəhbərliyində də yüksək qiymətləndirilirdi. 1982-ci ildə Leonid Brejnev vəfat edəndən və Yuri Andropov hakimiyyətə gələndən sonra onun ilk təyinatı məhz Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevi Moskvaya dəvət etmiş və ona yüksək vəzifə təklif etmişdir - Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifələrini.

Mən yaxşı xatırlayıram, atam bir neçə gün tərəddüd edirdi, Azərbaycandan getmək istəmirdi. Onun gördüyü işlər, əlbəttə ki, Azərbaycanı böyük dərəcədə inkişaf etdirmişdi və Azərbaycanın gələcək inkişafı ilə bağlı böyük planları var idi. Ancaq o vaxt təbii ki, güclü nizam-intizam var idi və eyni zamanda, sovet dövləti qarşısında yeni vəzifələr durmuşdu və o, bu yüksək məsuliyyəti öz üzərinə götürmüşdü. 1982-1987-ci illərdə o, bir çox önəmli sahələrə rəhbərlik edərək sovet dövlətinin uğurlu inkişafına öz töhfəsini vermişdir. Onun bilavasitə rəhbərliyi ilə böyük infrastruktur layihəsi olan Baykal-Amur dəmir yolu uğurla inşa edilmişdir, onun tikintisi tamamlanmışdır.

Eyni zamanda, daim Azərbaycana böyük diqqət, kömək göstərirdi. Əlbəttə, onun burada gördüyü işlər və fəaliyyəti imkan verirdi ki, o, Azərbaycanı tərk edəndən sonra da Azərbaycan inkişaf etsin. Ancaq buna baxmayaraq respublikada sosial-iqtisadi göstəricilər getdikcə aşağı düşürdü, vəziyyət tənəzzülə uğrayırdı. Nəticədə 1980-ci illərin sonlarında - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdır. Bir sözlə, o dövrdə Ulu Öndər çox böyük işlər görmüşdür və sovet məkanında onun xatirəsinə bu gün çox böyük hörmət və ehtiram var. Mənim onunla bərabər işləyən



şəxslərlə çoxsaylı görüşlərim deməyə əsas verir ki, o, sözün əsl mənasında, böyük hörmətə layiq olan insan idi.

1987-ci ildə heç bir əsas olmadan ovaxtkı sovet rəhbərliyi tərəfindən Heydər Əliyev bütün vəzifələrdən uzaqlaşdırıldı. Bunun heç bir əsası yox idi. Çünki onun peşəkarlığı, gördüyü işlərin nəticələri, əlbəttə ki, ona qarşı edilən ədalətsizliyə uyğun gəlmirdi. Ancaq o vaxt sovet rəhbərliyində olan adamlar, sovet dövlətinin rəhbəri ona qarşı çox mənfi münasibət göstərirdi. Heydər Əliyev çox prinsipial, sözünü deyən insan idi. O görürdü ki, ölkədə vəziyyət pisləşməyə doğru gedir. O görürdü ki, real islahat əvəzinə, boşboğazlıq, populizm hökm sürür. O görürdü ki, qəbul edilmiş qərarlar sovet dövlətinin zəifləməsinə xidmət göstərir. Eyni zamanda, 1985-ci ildən başlayaraq, Sovet İttifaqında milli münasibətlər sahəsində çox böyük pozuntulara yol verilmişdir. Sovet dövlətini vahid bir dövlət kimi saxlayan, ilk növbədə, milli münasibətlərin tənzimlənməsi idi. 1985-ci ilə qədər bu münasibətlər demək olar ki, sağlam zəmində qurulmuşdur. Bütün xalqlar rahat inkişaf edə, öz mədəniyyətini qoruya bilirdilər.

Ona görə bütün bu xoşagəlməz meyillərə qarşı Heydər Əliyev biganə qala bilməzdi, öz səsini ucaldırdı və əlbəttə ki, bu, sovet rəhbərliyinin xoşuna gəlmirdi. Heç bir əsas olmadan bütün vəzifələrdən uzaqlaşdırılandan sonra Azərbaycan böyük dayağı itirmiş oldu. Bizim mənfur qonşularımız dərhal bundan istifadə etdilər, onun istefasından iki həftə keçməmiş erməni separatçıları və onların mərkəzdəki havadarları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilsin.

Yəni, Heydər Əliyev amili, güclü şəxsiyyətin dövlətin mərkəzində olması imkan vermirdi ki, belə separatçı meyillər baş qaldırsın. Baxmayaraq ki, 1969-cu ilə qədər belə meyillər var idi. Ancaq Heydər Əliyev Azərbaycana rəhbər vəzifəsinə gələndən sonra bütün bu meyillərin qarşısı alınmışdır.

O vaxtdan xalqımıza, respublikamıza qarşı çox böyük ədalətsizliklər edilmişdir. Bunun nəticəsində Azərbaycan böyük fəla-



kətlə üzləşmişdir. Tam əminliklə deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, Azərbaycan rəhbəri kimi heç vaxt imkan verməzdi ki, separatçı meyillər baş qaldırsın və Dağlıq Qarabağ münaqişəsi başlasın. Çünki onun qətiyyəti, cəsarəti, nüfuzu heç vaxt imkan verməzdi ki, belə meyillər mövcud olsun. Ancaq ondan sonrakı rəhbərlər, əfsuslar olsun ki, zəiflik göstərmişlər, prinsipiallıq göstərməmişlər və onlar üçün öz şəxsi karyerası xalqın mənafeyindən qat-qat böyük əhəmiyyət kəsb edirdi.

1990-cı ilə qədər Heydər Əliyev pensiyaçı kimi yaşayırdı. Baxmayaraq ki, Heydər Əliyevə qarşı mərkəzdə təşkil edilmiş qarayaxma kampaniyaları aparılırdı, ancaq Azərbaycan xalqı ona olan hörmətini daim öz qəlbində yaşadırdı. 1990-cı ilin faciəvi günlərində Heydər Əliyev əsl lider kimi yenə də öz xalqının yanında yer tutdu, xalqa yol göstərdi. Mən o dəhşətli günləri yaxşı xatırlayıram, sovet hökuməti, sovet rəhbəri tərəfindən Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi. Qanlı Yanvar faciəsi böyük cinayətdir, öz xalqına qarşı böyük cinayətdir. Yüzdən çox günahsız insan vəhşicəsinə qətlə yetirilmişdir, yüzlərlə insan yaralanmışdır və itkin düşmüşdür. Heydər Əliyev dərhal bu ədalətsizliyə qarşı öz səsini ucaltdı. Yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - orada sovet rəhbərliyini, bu vəhşi aktı pislədi və Azərbaycan xalqına öz həmrəyliyini ifadə etdi. Bu, böyük cəsarət tələb edən addım idi. Çünki o vaxt Heydər Əliyev sovet təbliğatında çox böyük təzyiqlərə, böyük kampaniyalara məruz qalırdı. Ancaq xalqın ona olan sevgisini bu çirkin əməllər söndürə bilməzdi. Əksinə, xalq görürdü ki, öz liderinə qarşı böyük ədalətsizlik törədilir və onun ətrafında daha da sıx birləşməyə cəhd göstərirdi. 1990-cı il yanvarın 21-də Heydər Əliyevin Moskvada daimi nümayəndəlikdə keçirilmiş mətbuat konfransındakı çıxışı dəfələrlə dərc edilib, televiziyada göstərilib. Yenə də deyirəm, bu, böyük cəsarət tələb edən addım idi. Bu addım bir daha göstərirdi ki, Azərbaycan xalqının problemləri, mənafeyi, dərdi onun üçün hər şeydən üstündür, hər şeydən əzizdir və ağır günlərdə o, mütləq öz xalqının yanında olmalı idi. Onu da qeyd etməliyəm ki, o vaxt sovet hakimiyyəti hələ möhkəm idi, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt qalırdı. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa sovet dövləti dağılacaq.

Ondan sonra Heydər Əliyev uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxdı. Çox ciddi bəyanat vermişdi və təbii ki, ona qarşı bundan sonra da təzyiqlər, təqiblər daha da geniş vüsət almışdı, hətta tam dəqiq məlumata görə, onun həbsi məsələsi də qoyulmuşdu. Moskvada qalmaq mümkün deyildi, onun bütün ailə üzvlərinə qarşı da çox ciddi addımlar atılmışdı. Bütün ailə üzvləri tutduqları vəzifələrdən, - vəzifələr o qədər də böyük vəzifələr deyildi, adi vəzifələr idi, - çıxarılmışdı. Demək olar ki, sovet hakimiyyətinin repressiya maşınının nəticələrini biz o vaxt görmüşük və hiss etmişik.

Heydər Əliyev doğma Vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan vermədilər və Naxçıvana - doğulduğu yerə gedib orada yaşamağa məcbur olur və Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır vəziyyətdən xalqı ancaq Heydər Əliyev çıxara bilər, xalqı ancaq o xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu.

***Ardı Səh. 6***

# İlham Əliyev: "Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır"

*Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib*

Əvvəli Səh. 5

Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görülmüşdür, özünümüdafiə dəstələri yaradılmışdır və Naxçıvanın işğalına imkan verilməmişdir. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmişlər, naxçı-



vanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu, avantüra onlara çox baha başa gələ bilər və yenə də, - sonra da bunu dəfələrlə göstərəcəklər, - qorxaqlıq göstərərək öz çirkin niyyətlərindən əl çəkməli oldular.

Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla bərabər olmuşam. Çox ağır vəziyyətdə Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz üçün də çox böyük



işlər görülmüşdür. Çünki uzun fasilədən - 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi."

Prezident İlham Əliyev qeyd edib ki, ovaxtkı AXC-Müsavat hakimiyyəti xalqın ümidlərini doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özbaşınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü. Azərbaycanın ovaxtkı iqtidarı isə öz



laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atıb:

"Biz o günləri, o illəri yaxşı xatırlayırıq. Öz hakimiyyətini saxlamaq üçün Gəncəni bombalamağa qərar vermişdi və Gəncənin dağılmış binalarının o mənzərəsi bu gün bizim gözümüzün qabağındadır. Azərbaycan xalqı o anti-milli hakimiyyətə yox demişdir, cəmi bir il ona dözə bilmişdir və öz lideri ətrafında birləşmişdir. Hələ 1992-ci ildə Azərbaycanın qabaqcıl ziyalıları, tanınmış insanlar, ictimai xadimlər Heydər Əliyevə müraciət edərək partiyanın yaradılması ilə bağlı təkliflər irəli sürmüşlər və 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu da



gənc dövlətin siyasi sisteminin yaradılması demək idi. Çünki o günə qədər Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəlmişdir. Ovaxtkı AXC-Müsavat hakimiyyəti yenə də qorxaqlıq göstərərək kənara çəkilmiş, ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. O ağır, çətin vəziyyətdə xalq bu tarixi missiyanı Heydər Əliyevə həvalə etmişdir.

1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.

Ondan sonra Azərbaycanda sabitlik dövrü başlamışdır və bu dövr bu gün də davam edir. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdir, siyasi islahatlara start verilmişdir. Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri



əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir.

2003-cü ilin oktyabr ayında Heydər Əliyev xalqa müraciətində görülmüş işlərlə bağlı öz fikirlərini bildirmiş və əminliyini ifadə etmişdir ki, onun davamçıları onun yolu ilə gedərək, Azərbaycanı ondan sonra da uğurla idarə edə bilərlər.

2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulubdur. Biz son 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparırıq. Bizim milli dəyərlərimiz, ənənəvi dəyərlər bizim üçün əsasdır. Çox şadam ki, bu gün gənc nəsil milli ruhda tərbiyə olunur və milli ləyaqət hissləri güclənir, müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir. Biz Ulu Öndərin yolu ilə gedərək güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik. Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik."

X X X

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2018-ci il üzrə qalibləri elan olundu. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli musiqi mədəniyyətimizin inkişafı və təbliği, Azərbaycan dirijorluq məktəbi ənənələrinin yüksək səviyyədə davam etdirilməsi istiqamətində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Xalq Artisti, Dövlət Mükafatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri laureatı Rauf Abdullayevə "Qızıl çinar" beynəlxalq mükafatını, təqdim etdi.

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Qızıl çinar" beynəlxalq mükafatını Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Azərbaycan Respublikasının "Dostluq" və "Şöhrət" ordenləri ilə təltif olunmuş Mixail Qusmana təqdim etdi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva həmçinin Azərbaycan kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə görkəmli kinorejissor və ssenarist, Azərbaycan Respublikasının Xalq Artisti, "Şöhrət" və "Şərəf" ordenli Eldar Quliyevə "Qızıl Çinar" beynəlxalq mükafatını təqdim etdi.

Mərasim geniş konsert proqramı ilə davam etdi. Sonda xatirə şəkli çəkdirildi. Mərasimdən sonra Heydər Əliyev Mərkəzinin binasının üzərində videokompozisiya nümayiş etdirildi.



# Leyla Əliyevanın iştirakı ilə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

***Mayın 10-da IDEA İctimai Birliyinin təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan həyət sakinlərin istifadəsinə verilib. AZƏRTAC xəbər verir ki, yenilənmiş növbəti həyət Nizami rayonu, Məmməd Xəlil Şərifli və Şirin Mirzəyev küçələrinin kəsişməsində 10 minə yaxın sakinin məskunlaşdığı 7 çoxmərtəbəli binanı əhatə edir.***

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.



“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat



tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Nizami Rayon İcra Hakimiyyətinin dəstəyi ilə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan və 6 min kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə əyləncə qurğuları yerləşdirilib və idman alətlərindən ibarət kiçik meydança salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.



Sakinlərin istək və maraqlarını nəzərə alaraq, çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 150-yə yaxın ağac və kol, 1500-ə yaxın dekorativ gül əkilib. Qeyd edək ki, “Bizim həyət” layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan dördüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Əli Həsənov: “ABŞ Helsinki Komissiyası Azərbaycana qarşı “xüsusi marağı” ilə fərqlənir”

***Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook sosial şəbəkəsindəki səhifəsində ABŞ Helsinki Komissiyasında Azərbaycandakı seçkilər və fundamental azadlıqlarla bağlı növbəti dinləmələrə münasibət bildirib. SİA xəbər verir ki, Əli Həsənov ABŞ Helsinki Komissiyasının Azərbaycana qarşı “xüsusi marağı” ilə fərqləndiyini qeyd edib.***



Xatırladıb ki, məhz bu Komissiyanın sədri konqresmen Kris Smit hələ 2016-cı ilin dekabrında Azərbaycana qarşı sərt sanksiyaları nəzərdə tutan qanun layihəsi irəli sürmüşdü. Həmin layihənin müddəaları istər iqtisadi, istər siyasi, istərsə də hərbi sferada ABŞ-Azərbaycan münasibətlərini ciddi şəkildə korlamağa yönəlmişdi. Bu, həmin Smitdir ki, uzun müddətdir qondarma erməni soyqırımının ABŞ hökuməti tərəfindən tanınması üçün xüsusi canfəşanlıq göstərir. Bütün ölkələrə, xalqlara və konfessiyalara eyni münasibət sərgiləməli olan komissiya sədri özünün Ermənistana və erməni xalqına xüsusi sevgisinin olduğunu dəfələrlə etiraf edib.

Prezidentin köməkçisi Facebook sosial şəbəkəsindəki səhifəsində daha sonra yazır: “Budəfəki dinləmələrin də məhz onun rəhbəri olduğu komissiya tərəfindən təşkil edilməsini təsadüfi saymaq olmaz. Tədbirdə ölkəmizdəki prosesləri yaxından izləyən, ona maraq göstərən insanlarla yanaşı, müxtəlif səbəblərdən daim kəskin anti-Azərbaycan mövqeyi tutan “ekspertlər” də iştirak ediblər. Dinləmələrdəki çıxışlarla tanışlıq natiqlərin Azərbaycanda baş verən proseslər, ölkəmizdəki siyasi qüvvələr nisbəti, özlərini siyasi partiya və ya ictimai hərəkat kimi təqdim edən bəzi qurumların cəmiyyət həyatındakı real çəkisi və gerçək niyyətləri barədə çox səthi, əksər hallarda isə yanlış təsəvvürə malik olduqlarını göstərdi. Xarici qrant və ianələr hesabına Azərbaycandan kənarda informasiya resursu yaradan, bir neçə il əvvəl həmin resursa məxsus saytda erməni soyqırımının tanınmasının vacib olduğu barədə məqalə yerləşdirən bir “soydaşımız” yenə də sanksiya məsələsini gündəmə gətirdi, Azərbaycanın lobbiçilik sahəsindəki fəaliyyətini tənqid etdi, ABŞ-ı və Avropa İttifaqını növbəti dəfə ölkəmizə ciddi təzyiq göstərməyə çağırdı.

Qəribə olan həm də budur ki, son dövrlər özünü Avropadakı “iaşə müxalifəti lideri” kimi tanıtmış, vulqar davranışı, təhqiramiz ritorikası və azərbaycanlıya xas olmayan saç düzümü ilə fərqlənən birisi də həmin tədbirə dəvət edilmişdi. Nə danışdığının fərqində olmayan bu “iaşə lideri” Qərb ölkələrini Azərbaycan hakimiyyəti ilə normal münasibət saxlamaqda ittiham edir, Avropa İttifaqı, aparıcı Avropa ölkələri və ABŞ liderlərinin növbədənkənar prezident seçkilərindən sonra cənab İlham Əliyevə məktub göndərərək onu təbrik etmələrini az qala faciə sayır. Təəssüf hissi ilə bildirirəm ki, xaricdə məskunlaşmış bəzi soydaşlarımız bu gün anti-Azərbaycan dairələrin əlində bir alətə çevrilib. Onlardan dövlətimizi, xalqımızı və ölkə hakimiyyətini gözdən salmaq üçün fəal istifadə edirlər. Görünür, bütün bu canfəşanlıq, müxtəlif ölkələrdə keçirilən tədbirlər, bir ölkədən digərinə və hətta bir qitədən başqasına edilən səfərlər sırf şəxsi təşəbbüs deyil. Heç şübhəsiz, bütün bunların arxasında xaricdəki bəzi anti-Azərbaycan dairələrdən və imkanlı azərbaycanlılardan alınan böyük miqdarda pullar və mütəmadi təlimatlar dayanır”.

Belələrini tutduğu səhv yoldan çəkinməyə çağıran Əli Həsənov yazır: “Xaricdə öz ölkənizə və xalqınıza qarşı belə canfəşanlıqla təbliğat aparmaqdansa, intellektinizin imkan verdiyi dərəcədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırın. Bacarırsınızsa həmin ölkələrdə Azərbaycanın haqq sözünü deyən, Ermənistanın işğalçılıq siyasətinə qarşı çıxan siyasətçilərlə, politoloqlarla, QHT və KİV nümayəndələri ilə əlaqə qurun, onları öz tədbirlərinizə cəlb edin. Belə etsəniz, mənsub olduğunuz xalqın hörmət və etimadını qazanarsınız... Bir sualım da var: sizcə, dünənki dinləmələrdə salonda oturan erməni lobbisi təmsilçiləri öz ölkələrini sizin kimi müzakirə hədəfinə çevirərdilərmi? Hər halda, düşünməyə dəyər”.

# Siyavuş Novruzov: “Heydər Əliyev bütün bəşəriyyət üçün çalışıb”

***“Biz Ümummilli Lider Heydər Əliyevin nə qədər dövlətçi insan olduğunu və dövlət maraqlarını hər şeydən üstün tutduğunun şahidiyik. Ulu Öndər Azərbaycanın bütün qayğılarını əzbər bilən insan idi”.***



SİA-nın xəbərinə görə, bunu Yeni Azərbaycan Partiyasının icra-katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov Parlamentdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə bağlı keçirilən xüsusi iclasda çıxışı zamanı deyib. Ulu Öndər Heydər Əliyevin ədalətli insan olduğunu xüsusi vurğulayan deputat söyləyib ki, O, sosial ədalət prinsipi ilə yaşayırdı: “Hərçənd ki, vaxtilə Ulu Öndərə qarşı Moskvada, Azərbaycanda bəzi insanlar tərəfindən ədalətsizlik edildi, amma bütün bunlara baxmayaraq, hər kəsə ədalətlə yanaşır, olanları bağışlayırdı. Ümummilli Lider Heydər Əliyev ədalətsizliyə qarşı mübarizə aparırdı. Dahi şəxsiyyət mübariz idi. Amma Ümummilli lider Heydər Əliyevi ağrıdan məsələ Onun çörək verdiyi insanların sonradan xəyanət etməsi oldu”.

S.Novruzov qeyd edib ki, Ulu Öndər ümumbəşəri şəxsiyyətdir: “O, bütün bəşəriyyət üçün çalışıb. Ümummilli lider partiya yaratmaq istəmirdi. Lakin sonradan əhalinin vəziyyətini gördükdən sonra YAP-ı yaratdı. Yeni Azərbaycan Partiyası Ulu Öndərin əsasını qoyduğu siyasətin davam etdirilməsi istiqamətində əsaslı işlər aparır. Çünki bu siyasət Ulu Öndərin siyasi xəttidir. Bizim borcumuz müstəqil Azərbaycanın daimi olması üçün çalışmaqdır”. “Ümummilli Lider humanist idi. Bildiyiniz kimi, Şərqdə ilk dəfə ölüm hökmü məhz dahi şəxsiyyət tərəfindən ləğv edilib”, - deyə deputat əlavə edib.

# Yeni Azərbaycan Partiyası internat məktəbinin sakinləri üçün toy mərasimi təşkil edib

## *Yeni ailə qurmuş cütlüyə partiya tərəfindən mənzil hədiyyə olunub*

***Azərbaycan xalqının əsrlərdən gələn gözəl və dəyərli adət-ənənələri var. Yüz illərdir ki, bu ənənələr yaşayaraq, bugünümüzə gəlib çatıb. Xalqımızın gözəl ənənələrindən biri də xeyirxahlıq etmək, imkansızlara, kimsəsizlərə yardım etmək, onlara arxa-dayaq olmaqdır. Qədimlərdən gələn bu ənənə artıq müstəqil Azərbaycanda dövlət siyasətinə çevrilib və bu siyasətin əsası da Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Bu gün isə bu siyasət Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.***

Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu və Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası da bu ənənələrə sadiq qalaraq, xeyriyyə tədbirlərini davam etdirir. Partiyanın təşkilatçılığı ilə mayın 9-da Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən Təhsil Nazirliyinin 8 saylı sanatoriya tipli internat məktəbinin məzunları, valideyn himayəsindən məhrum olmuş gənclər üçün - Fikrət Həsənovla Aytac Səfərova üçün toy mərasiminin keçirilməsi də milli adət-ənənələrimizə, Heydər Əliyev ideyalarına sadiqliyin ifadəsidir.



**Əli Əhmədov: "Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu ölkədə heç kim tək və kimsəsiz deyil"**





Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ərəfəsində təşkil olunan gənclərin toy şənliyi Bakıdakı məşhur "Xəmsə" şadlıq sarayında keçirilib və şənlikdə YAP-ın üzvləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, gənclər və incəsənət adamları iştirak ediblər.

### "Bu gün bayram bayrama qarışıb"

Əvvəlcə onu bildirək ki, 8 saylı sanatoriya tipli internat məktəbində beylə gəlinə xeyir-dua verilib. Məktəbin direktoru Pəri Paşayevanın sözlərinə görə, hər iki gənc 6-7 yaşlarından bu internat məktəbində böyüyüblər. Fikrət 6 yaşında olanda, onu xalası buraya gətirdi. Bir neçə il sonra isə Aytac da bizim məktəbimizə gətirilib. Elə ilk vaxtlardan Fikrət Aytacı görüb bəyənib və bir-birilərini seviblər. Direktorun dediyinə görə, Fikrət məktəbi bitirdikdən sonra da, ona burada yaşaması üçün şərait yaradılıb. 3-4 il əvvəl Fikrət Aytaca nişan üzüyü bağışlasa da, toy etməyə imkanı olmayıb. Yeni Azərbaycan Partiyası bu təşəbbüsü ilə gəncləri bir-birinə qovuşdurdu. "Bu gün bayram bayrama qarışıb. Hazırda respublikamızın bütün guşələrində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi qeyd olunur. Bu gün həm də bu gənclərin toy mərasimini keçiririk. Sevincimizin həddi-hüdudu yoxdur. Prezidentimizə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, bu xeyirxah missiyanın ərsəyə gəlməsində zəhməti olan Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədova və əməyi keçən digər insanlara da dərin təşəkkürümüzü bildiririk"-deyə məktəbin direktoru qeyd edib. Hər iki gənci öz övladı hesab edən Pəri xanım Fikrətlə Aytaca xoşbəxlik arzulayıb.

Fikrətin sinif rəhbəri olmuş Xanım müəllimə onun oxuduğu müddətdə davranışından, tərbiyəsindən razılıq edib və gənclərə xoşbəxtlik arzulayıb.

### "Şükürlər olsun ki, bu gün biz ailə qururuq"

Bir sözlə, məktəbin kollektivi, Fikrətlə Aytacın müəllimləri, YAP Xəzər rayon təşkilatının rəhbərliyi mərasimdə cütlüyə xoş arzularını bildiriblər. Belə bir xeyirxah missiya təşkil edildiyi üçün ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya və YAP-ın rəhbərliyinə minnətdarlıq ifadə olunub.

Yeri gəlmişkən, bəylə gəlin də mərasimdə öz sevinc hisslərini bölüşüblər. "Uşaq yaşlarından bu məktəbdə yaşamışıq. Bura bizim evimiz olub və burada bir-birimizi tanımışıq. Mən Aytacı bəyəndim və sevdim. Şükürlər olsun ki, bu gün biz ailə qururuq. Allah hər kəsdən razı olsun. İnşallah, layiqli ailə olarıq"-deyə Fikrət bəy bildirib. Aytac isə "Bizim toy mərasiminin təşkil olunmasında əməyi keçən hər kəsə təşəkkür edirəm"-deyərək, sevdiyi insanla qovuşmasını sevinc göz yaşları ilə ifadə edib.

### Bu, çox humanist təşəbbüsdür

İnternat məktəbində YAP Xəzər rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Namiq Əhmədov düşüncələrini bizimlə bölüşüb: "Hazırda ölkəmizdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar tədbirlər keçirilir. YAP da bu istiqamətdə müxtəlif layihələr reallaşdırır. Bu gün isə partiyamız 8 saylı internat məktəbinin sakini olmuş iki gəncin toyunu təşkil edir. Bu, çox humanist təşəbbüsdür, partiyanın niyyəti gözəldir. Çünki bu gənclərin valiyenləri yoxdur. Amma bu hadisə göstərir ki, onlar diqqətdən kənarda qalmayıblar. Hesab edirəm ki, partiyamızın bu addımı Ulu Öndərimizin anadan olmasının 95 illik yubileyinə töhfədir".

YAP Xəzər rayon təşkilatı qadınlar şurasının sədri Pərvanə Hacıyeva da hər iki gənci yaxşı tanıdığını söyləyib. Gənclərin bir-birinə qovuşmasına çox sevindiyini söyləyən P.Hacıyeva onların qurduğu ailənin xoşbəxt olmasını arzulayıb: "Bir neçə gün öncə, "Hollivud" restoranında xınayaxma mərasimi oldu. Bu mərasimi hamımızın yaxşı tanıdığı Nazilə xanım təşkil etdi. Gəlinimizin əlinə xınanı mən yaxmışam. Onu öz övladım hesab edirəm".

Sonra bəylə gəlin el adəti üzrə "Qurani-Kərim"in altından keçərək, şadlıq evinə yola salınıblar. Maşın karvanı "Xəmsə" şadlıq evinə gələndə isə artıq qonaqların bir çoxu təşrif buyurmuşdular. Budur, "Vağzalı" çalınır, bəylə gəlin alqış sədaları altında şadlıq sarayına daxil olurlar. Cütlüyün nikah mərasiminə "Səadət" sarayının əməkdaşı dəvət edilib. Bayaqdan dəhlizdə mərasimin başlamasını gözləyən bu xanım sevinclə nikaha başlayır. Bəylə gəlin isə həm sevinc, həm də həyəcanla nikah sənədini imzalayırlar.

Fikrət Həsənovla Aytac Səfərovanın nikahı rəsmiləşdirildikdən sonra məktəbinin direktoru Pəri Paşayeva hər kəsə təşəkkür edib. Göstərilən diqqət və qayğıya görə, ölkə rəhbərliyinə minnətdarlığını bildirən təhsil ocağının rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın hər zaman kimsəsiz və valideyn himayəsindən məhrum olmuş insanlara xüsusi həssaslıqla yanaşdığını söyləyib.

### Qoy bu ev sizin xoşbəxtlik ocağınız olsun!

Toy mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov çıxış edərək, gənclərə xeyir-dua verib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. Gənclərə möhkəm ailə və xoşbəxtlik diləyən Əli Əhmədov inamını

# Yeni Azərbaycan Partiyası internat məktəbinin sakinləri üçün toy mərasimi təşkil edib

*Yeni ailə qurmuş cütlüyə partiya tərəfindən mənzil hədiyyə olunub*





ifadə edib ki, bu qədər insanın xeyir-duası ilə qurulan ailə çox möhkəm olacaq: "Bu toyun bir mənası ondan ibarətdir ki, iki gənc ailə qurur, bundan sonrakı ömürlərini birləşdirirlər. İkinci mənası isə odur ki, cəmiyyətimiz bir daha öz birliyini göstərir, insanlara kömək göstərmək istəyini ifadə edir. Bu da cəmiyyətimizi birləşdirən və möhkəmləndirən ən güclü amillərdən biridir". O, qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu ölkədə heç kim tək və kimsəsiz deyil. Bu toy şənliyini cəmiyyətimizin birliyinin təzahürü adlandıran Baş nazirin müavini gənclərə nümunəvi ailələrdən olmağı arzulayıb.

"Bu, birinci hal deyil. Yəqin ki, partiyamızın təşkil etdiyi bu tipli tədbirlər sonuncu olmayacaq. İstərdik ki, bütün gənclərimiz ailə qurub, ev-eşik sahibi olsunlar"- deyən YAP Sədrinin müavini gənc ailəyə yeni mənzilin açarını təqdim edib. "Arzu edirik ki, bütün gənclərimiz evlənə bilsinlər, ailə qursunlar, ev-eşik sahibi olsunlar. Bir halda ki, toy olur, ailə qurulur, orada gərək ev də olsun. Mən istəyirəm, bu gün sizin də iştirakınızla bu gənc ailənin evinin açarını onlara təqdim edib. Artıq onların öz evləri də var. Bir daha təbrik edirəm. Qoy bu ev sizin xoşbəxtlik ocağınız olsun. Xoşbəxt olun! Bundan sonrakı həyatınızda da imkanımız daxilində sizə kömək etməyə hazırıq. İnanırıq ki, cəmiyyətimizin gözəl ailələrindən biri olacaqsınız. Övladlarınız, uğurlu gələcəyiniz olacaq. Biz də sizin uğurlarınıza və xoşbəxtliyinizə baxıb sevinəcəyik"- deyə Əli Əhmədov qeyd edib.

Bəy də onlara göstərilən qayğıya görə ölkə rəhbərliyinə, Yeni Azərbaycan Partiyasına minnətdarlığını bildirib. O, həyat yoldaşı ilə birlikdə YAP-ın üzvü olduğunu da qeyd edib.

Sonra Əli Əhmədov başda olmaqla, millət vəkilləri "Süleymani" havasında qol qaldırıb, ürəkdən rəqs ediblər.

### Ailə kiçik dövlət, böyük sərvətdir!

Təhsil Nazirinin müavini Firudin Qurbanov da gənclərə xoş günlər arzulayıb, Azərbaycanın inkişafı naminə həyata keçirilən proseslərdə yaxından iştirak etmələrini tövsiyə edib və "ailə kiçik dövlət, böyük sərvətdir" deyərək, onlara təmsil etdiyi qurum adından hədiyyə verib.

### Bu ailə həmişə özündə milli adət-ənənələri yaşadacaq

Toy mərasimində iştirak edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov gəncləri ailə qurmaları münasibətilə təbrik edib: "Bu gün onların həyatında yeni mərhələ başlayır. İnanıram ki, bu ailə həmişə özündə milli adət-ənənələri yaşadacaq". Azərbaycan dövlətinin qayğıya ehtiyacı olan insanlara daim dəstək verdiyini deyən S.Novruzovun sözlərinə görə, YAP-ın bu təşəbbüsü bu dəstəyin ifadəsidir: "Dövlətimiz və Heydər Əliyev Fondu hər zaman kimsəsiz insanlara qayğı göstərir. Bu siyasət bundan sonra da davam edəcək".

Toy mərasimində iştirak edən Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli öz təəssüratlarını bölüşüb: "Əsl sosial siyasət budur. Bu mərasim onu təsdiq edir ki, dövlətimizin siyasətinin əsasında insanlara, xüsusilə, qayğıya ehtiyacı olan vətəndaşlara diqqət və kömək dayanır. Bu siyasəti Ulu Öndərimiz Heydər Əliyev müəyyənləşdirib və hazırda Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni Azərbaycan Partiyası həmişə bu tipli xeyirxah aksiyalarla çıxış edir. İnanıram ki, bu gənclərimiz cəmiyyətimizdə nümunəvi ailələrdən biri olacaq".



YAP Siyasi Şurasının üzü, Milli Məclisin deputatı Musa Quliyev də bildirib ki, bu, çox humansit bir təşəbbüsdür: "Bu nümunə təbliğ olunmalı və yayılmalıdır. Ümummilli Liderimiz Heydər Əliyev həmişə humansit siyasəti öndə tutub. Xatırlayıram, Ulu Öndərimiz "Gülüstan" sarayında valideyn himayəsindən məhrum olmuş uşaqlarla görüşərkən bildirdi ki, heç kim özünü kimsəsiz hesab etməsin, dövlət həmişə sizin arxanızdadır. Hazırda bu siyasəti Prezident İlham Əliyev davam etdirir". M.Quliyev deyib ki, cəmiyyətimizdə insanların bir-birinə kömək etməsi milli adət-ənənələrimizdən və dinimizdən gəlir. Bu, həm də dövlət siyasətidir. Bu gün valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göz önündədir. Ölkə Prezidentinin və Heydər Əliyev Fondunun qayğısı nəticəsində valideyn himayəsindən məhrum olmuş uşaqlar həyatın bütün çətinlikləri ilə baş-başa qalmırlar. Dövlətimiz onlara lazımi dətsək və qayğı göstərir. Bu uşaqların təhsili, mənzil və işlə təminatı həmişə diqqət mərkəzindədir. Bu toy mərasimini də Ümummilli Lider Heydər Əliyevin yaratdığı, Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiya öz üzərinə götürübsə, bu, böyük xeyirxahlıq missiyasıdır. Bu gənclər partiyamızın övladlarıdır və sağlam gəncliyimizin nümayəndələridirlər. Hesab edirəm ki, YAP-ın bu təşəbbüsü cəmiyyətdə alqışlanan bir təşəbbüsdür. Digər ictimai-siyasi təşkilatlar da bu təşəbbüsü dəstəkləyib, davam etdirməlidir. Biz insanları belə birləşdirə, sevindirə və xoşbəxlik bəxş edə bilərik. Bu toy mərasimi gənclərin əbədi olaraq yaddaşında qalacaq. Onlar öz hisslərini övladlarına və nəvələrinə danışacaqlar. Mən gənclərimizə xoşbəxtlik arzu edirəm".

### Bu hadisə nəcib əməldir

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı partiyamızın bu xeyirxahlıq missiyasının böyük məna kəsb etdiyini deyib: "Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin qurduğu, Prezident İlham Əliyevin rəhbərliyi etdiyi, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Sədr müavini olduğu partiyadır. Bu şəxslərin həyata keçirdiyi tədbirlərin əsasında hər zaman humanizm və xeyirxahlıq dayanıb. Humanizm siyasətinin əsası Ümummilli Liderimiz tərəfindən qoyulub və bu gün Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir. Ölkəmizdə qısa müddət ərzində qayğıya ehtiyacı olan insanlar üçün bütün şərait yaradılıb. Onların təminatları yüksək səviyyədədir. O cümlədən, kimsəsiz uşaqlara da yüksək qayğı var. YAP bu missiyası ilə, məhz bu tipli insanlara yüksək qayğını təbliğ edir. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ərəfəsində bu xeyirxah missiya dövlət qayğısı ilə böyümüş gənclərin sağlam ailə qurmasına verdiyi dəstəkdir. Mən bu hadisəni nəcib əməl hesab edirəm. Bu hadisə Ulu Öndər Heydər Əliyevun ruhuna böyük ehtiramdır".

Toyda fəal iştirak edən insanlardan biri də YAP Gənclər Birliyinin sədri Seymur Orucov idi. O da ailə quran cütlüyü təbrik edib. "Dövlətimiz və partiyamız gənclərə həmişə qayğı göstərir. Bu hadisə də həmin qayğının əyani göstəricisidir. Bu gün ailə quran gənclər də YAP-ın üzvləridir. İnanıram ki, onlar partiyamızın fəal gəncləri olacaqlar. Ümumiyyətlə, hər bir cəmiyyətdə gənclər aparıcı qüvvədir, güclü potensialdır, enerjidir. Bu toy mərasimində gəncəlrimizin fəal iştirakı şənliyi daha da artırır"-deyən S.Orucov Fikrətlə Aytaca xoş arzularını bildirib.

Qeyd edək ki, toy mərasimində Azərbaycanın tanınmış sənət adamları çıxış ediblər. Partiyamızın gənc üzvlərinin fəal iştirakı, rəqsləri mərasimi daha da rəngarəng edib və şənləndirib.

Belə bir deyim var ki, eşq və məhəbbət sönməyən məşəldir. İnanırıq ki, Fikrətlə Aytacın qəlbində, ailəsində də bu məşəl heç zaman sönməyəcək. Yeni ailə quran cütlüyü təbrik edir, onlara xoşbəxtlik arzulayırıq!

# Heydər Əliyev Mərkəzində “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılış mərasimi olub

**Mayın 10-da Heydər Əliyev Mərkəzində “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” tarixi-sənədli sərgisinin açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rusiya Federasiyası Prezidentinin Administrasiyası və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan sərgidə Azərbaycanın və Rusiyanın ictimai-siyasi xadimləri, ziyalıları iştirak ediblər.



“Uğurlu strateji tərəfdaşlığın vacib rəhni - prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsidir”, - deyən İlyas Umaxanov ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından danışdı. Onu da diqqətə çatdırdı ki, bu gün Heydər Əliyev Mərkəzində açılan sərgi Azərbaycan xalqının və onun liderinin tarixini daha yaxşı öyrənməyə imkan verəcək.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini Qriqori Karasin sərginin görkəmli şəxsiyyətə həsr edildiyini, Heydər Əliyevin nəhəng əmindir ki, bu münasibətlər ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcək. Sonra sərginin açılışı oldu.

Əlamətdar tarixə - Azərbaycan xalqının Ümummilli Liderinin anadan olmasının 95 illiyinə həsr olunan “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” Azərbaycan-Rusiya tarixi-sənədli sərgisi Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rusiya Federasiyası Prezidentinin Administrasiyası və Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilib. Sərgi altı bölmədən ibarətdir. Hər bir bölmə Ulu Öndərin həyatının müəyyən mərhələsinə həsr edilib. Sərgidə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 300-dən çox eksponat - fotolar, sənədlər və videomateriallar nümayiş olunur. Ümummilli Liderin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilib. Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələri yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Dövlət-











Rusiya ilə dostluq münasibətlərinin qurulmasında, iki ölkə arasında strateji tərəfdaşlığın əsaslarının qoyulmasında ulu öndər Heydər Əliyev mühüm rol oynayıb. Buna görə də Heydər Əliyev Mərkəzində əlamətdar yubileyə - Azərbaycan xalqının Ümummilli Liderinin anadan olmasının 95 illiyinə həsr edilən “Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs” mövzusunda tarixi-sənədli sərginin açılması təsadüfi deyil. Bununla bağlı keçirilən mərasimdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov unikal sərginin təşkil edildiyini bildirərək, Mərkəzin və Heydər Əliyev Fondunun Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsinə yönələn layihələri hər zaman dəstəklədiyini diqqətə çatdırdı.

Anar Ələkbərov Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın bu istiqamətdə gördüyü işləri qeyd etdi. O, Ulu Öndərin irsinin araşdırılması və gələcək nəsillərə çatdırılması ilə məşğul olan Heydər Əliyev Mərkəzində təşkil edilən sərgilər və tədbirlər sırasında Rusiya mədəniyyət və incəsənət xadimlərinin işlərinin də geniş yer aldığını vurğuladı və sərginin təşkilatçılarına minnətdarlığını bildirdi.

Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov Rusiya Prezidenti Vladimir Putinin tədbir iştirakçılarına müraciətini oxudu.

Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov oxudu.

Tədbirdə çıxış edən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanov Heydər Əliyevi Azərbaycanın inkişafında unikal rol oynayan əfsanəvi siyasətçi kimi səciyyələndirdi. Bu sərginin Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlığını nümayiş etdirdiyini deyən rusiyalı qonaq ölkələrimiz arasında əlaqələrin qarşılıqlı hörmətə, mehriban qonşuluğa, dostluğa əsaslandığını qeyd etdi. Bildirdi ki, indi əsas vəzifə bu estafeti gələcək nəsillərə ötürməkdir.

cəsarətə və təcrübəyə malik olduğunu, onun Azərbaycanın inkişafı üçün taleyüklü qərarlar qəbul etdiyini bildirdi. İki dəfə Azərbaycana rəhbərlik edən Ulu Öndərin fəaliyyəti barədə danışan Rusiyanın xarici siyasət idarəsinin rəsmisi dedi ki, Heydər Əliyevi insanlara və işinə olan maraq fərqləndirirdi, o, nəhəng potensiala malik şəxsiyyət idi. Qriqori Karasin qeyd etdi ki, Ulu Öndər Rusiya ilə münasibətlərə xüsusi əhəmiyyət verirdi. Ümummilli Liderin siyasi kursunu bu gün Prezident İlham Əliyev davam etdirir. Rusiya Federasiyası xarici işlər nazirinin müavini vurğuladı ki, məhz buna görə də Rusiya-Azərbaycan münasibətlərinin gələcək inkişafına nikbinliklə baxır və

lərimiz çoxsaylı nəsillərin topladığı mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq ənənələrini müstəqillik illərində nəinki qoruyub saxlamağa, həm də artırmağa nail olublar. Bu genişmiqyaslı sərgi tarixçilərin, arxiv mütəxəssislərinin və dövlət nümayəndələrinin birgə səylərinin nəticəsidir. Əlamətdar haldır ki, Bakıda keçirilən sərgidə həm Heydər Əliyev şəxsiyyətinin çoxşaxəliliyini görmək, eyni zamanda, onun irsi ilə təmasda olmaq imkanı verən çoxsaylı arxiv sənədləri və fotoşəkillər təqdim edilir. Bu əlamətdar hadisə münasibətilə hazırlanan kataloqda əsası Ümummilli Lider tərəfindən qoyulan siyasi kursun varisliyi aydın görünür.

# Milli Məclisdə ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə bağlı xüsusi iclas keçirilib

***Mayın 10-da Milli Məclisin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar xüsusi iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, iclası açan sədr Oqtay Əsədov Ulu Öndərin Azərbaycan xalqının dövlətçilik tarixində və taleyində göstərdiyi misilsiz xidmətlərdən bəhs edən məruzə ilə çıxış edib.

Spiker deyib ki, filosoflardan birinin dediyinə görə, xalqın yaradıcılıq qüvvəsinin əsasını böyük şəxsiyyətlərin fəaliyyəti təşkil edir. Hər tarixi inkişaf dövrü öz görkəmli şəxsiyyətlərini yaradır. Amma elə şəxsiyyətlər də var ki, zamanın hüdudlarını aşaraq yaşadıqları dövrün simasını özləri müəyyən edirlər. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti Vətəninin və millətinin taleyində müstəsna rol oynayan nəhəng şəxsiyyətin zamanın fövqünə yüksəlməsinə parlaq bir nümunədir. Yalnız onun sayəsində xalqımız əvvəlcə siyasi və dövlət müstəqilliyinin möhkəm təməlini yaradıb, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövlətini qoruyub saxlaya bilib. Heydər Əliyev XX əsrin sonlarında və XXI əsrin əvvəllərində dövlətimizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin ilhamvericisi və təşkilatçısı olub. 1960-cı illərin axırlarında və 1990-cı illərin əvvəllərində Ulu Öndərin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın çox ağır sınaqlara çəkildiyi dövrlərə təsadüf edib. Hər dəfə də Heydər Əliyev ona bəslənən ümidləri doğruldaraq əsl milli lider olduğunu sübuta yetirib. 1969-1982-ci illərdə Ulu Öndərin dahiyanə idarəçilik qabiliyyəti və strateji təfəkkürü sayəsində Azərbaycan, sözün həqiqi mənasında, əsrə bərabər inkişaf yolu keçdi. Sovet İttifaqının ən geridə qalan respublikalarından biri olan Azərbaycan qısa müddət ərzində tənəzzüldən çıxaraq yüksəliş yoluna qədəm qoydu. O, Azərbaycanın müstəqillik yollarında qarşılaşacağı problemləri qabaqcadan görür və həll edirdi. Ulu Öndər bütün dövlət hakimiyyəti orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi.

Partiya lideri olmaqla yanaşı, o, dəfələrlə SSRİ və Azərbaycan SSR Ali sovetlərinin deputatı oldu. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi Azərbaycanın iqtisadi inkişafı üçün olduqca böyük əhəmiyyətə malik bir neçə mühüm qərar qəbul etdi. Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya Komissiyasının hazırladığı və 1978-ci ilin aprelində qəbul edilmiş Azərbaycan SSR-in yeni Konstitusiyası mövcud olan məhdud imkanlar daxilində xalqın mənəvi sərvətlərinin qorunması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Azərbaycan dili respublikada dövlət dili statusu aldı. Bir çox vacib sahələrdə, o cümlədən hərbi sahədə milli kadr potensialının yaradılması istiqamətində zəruri tədbirlər görüldü. Azərbaycanda orta pillə hərbi kadrlar hazırlayan tədris müəssisəsi - Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı.

Hərbi məktəblərə yerli əhali nümayəndələrinin qəbulu artırıldı. Minlərlə azərbaycanlı gənc Rusiyanın, digər respublikaların hərbi məktəblərinə təhsil almağa göndərildi. O dövrdə hazırlanan kadrlar sonralar ordumuzun özəyini təşkil etdilər. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi tariximizə daxil olaraq xalqımızın milli mənlik şüurunun oyanışına güclü təkan verdi. Məhz həmin dövrdə imperiya tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradıldı. 1982-1987-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Heydər Əliyev Azərbaycanın ardıcıl inkişafı üçün əlindən gələni edirdi. Onun Moskvada hakimiyyətin ən yüksək zirvəsində olması Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan qüvvələrin qarşısında ən böyük manəə idi.



1987-ci ilin oktyabr ayında Heydər Əliyevin Sovetlər Birliyinin rəhbərliyində yüksək vəzifələrdən uzaqlaşdırılması ilə Azərbaycanın faciələrinin əsası qoyuldu. Məhz bu istefa Azərbaycana qarşı hazırlanmış məkrli planların həyata keçirilməsi yolunda ilk addım oldu.

"Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövrünün təhlili göstərir ki, etibarlı və səriştəli siyasi rəhbərlik amili cəmiyyətin və dövlətin inkişafında müstəsna və həlledici rol oynayır. Bu həqiqəti xalqımız 1988-1993-cü illərin faciəli hadisələri zamanı bir daha yəqin edib. Respublika rəhbərliyində bir-birini əvəz edən şəxslərin səriştəsizliyi, müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, hərc-mərclik, xaos Azərbaycanı uçurumun bir addımlığına gətirib çıxarmışdı. O vaxt çoxları inanmırdı ki, Azərbaycan bu qədər böyük təhlükələrdən qurtula biləcək və müstəqilliyini qoruyub saxlayacaq. Amma tarixin şahid olduğu vətəndaş fədakarlığı, siyasətçi hünəri Azərbaycan üçün yazılmış ssenarilərin həyata keçməsinə imkan vermədi", - deyə Milli Məclisin sədri vurğulayıb.

Sədr çıxışında bildirib ki, ən böyük milli sərvət olan dövlət müstəqilliyini xalqımız XX əsrdə iki dəfə əldə edib. 1918-1920-ci illərdə mövcud olmuş, xalqımızın dövlətçilik şüurunun inkişafında müstəsna rol oynamış Azərbaycan Xalq Cümhuriyyətini qoruyub saxlamaq mümkün olmasa da, əsrin sonlarına yaxın nail olduğumuz dövlət müstəqilliyi məhz Heydər Əliyev dühasının köməyi ilə xilas edilib. Azərbaycanın ikinci dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də elan olunsa da, onun əsl tarixi məhz 1993-cü il iyunun 15-dən başlanır. Tamamilə məntiqlidir ki, sonralar ölkənin ali qanunvericilik orqanı xalqın arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş Günü kimi dəyərləndirib. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə başlanıb. Ulu Öndər Prezident seçilənədək dörd ay parlamentə rəhbərlik edib. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun ilk addımları məhz bu dövrdə və bu binada başlanıb.

Heydər Əliyevin Azərbaycan parlamentinin sədri seçilməsi ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı. Müasir peşəkar parlamentin formalaşması istiqamətləri müəyyən edildi. Milli Məclis müzakirələrin açıq və demokratik şəraitdə aparıldığı real hakimiyyət orqanına çevrildi. Ölkənin ictimai-siyasi həyatı üçün çox böyük əhəmiyyətə malik bir sıra qərarlar qəbul edildi. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti xalqa sədaqətlə xidmət etmək, onun yolunda hər cür fədakarlığa hazır olmaq nümunəsidir. 1993-cü ildən 2003-cü ilədək olan on il ərzində onun həyata keçirdiyi nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Ulu Öndərin xilaskarlıq missiyasında ilk addımı ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış dövlət və hakimiyyət böhranını aradan qaldırmaq, vətəndaş müharibəsi təhlükəsinin qarşısını almaq oldu. Torpaqlarımızı müdafiə etməyə qadir olan milli ordunun yaradılması ən mühüm vəzifələrdən biri kimi irəli sürüldü. Bu istiqamətdə həyata keçirilən qəti tədbirlər döyüş əməliyyatları zonasında dönüşün əsasını qoydu. Milli Ordumuzdan aldığı qüvvətli zərbələr Ermənistan Respublikasını Azərbaycanla silah gücünə danışmağın mümkün olmadığına inandırdı. Cəbhə xəttində atəşkəs elan olundu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasına dair danışıqlara başlandı. Ölkə daxilində möhkəm ictimai-siyasi sabitlik təmin edildi. Bu isə Azərbaycan dövlətinin yeni neft strategiyasının həyata keçirilməsinə imkan yaratdı. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə dair xarici neft şirkətləri ilə onlarca saziş imzalandı. Azərbaycan iqtisadiyyatına milyardlarla dollar məbləğində investisiya cəlb edildi. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişinə başlandı. Neft sənayesinin dirçəlməsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına da şərait yaratdı. Bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu, iqtisadi islahatlar, o cümlədən torpaq islahatı, özəlləşdirmə aparıldı. Həyatın bütün sahələrində tənəzzülə son qoyuldu, ölkəmiz ardıcıl inkişaf yoluna çıxdı. Azərbaycan mötəbər beynəlxalq təşkilatların bərabər hüquqlu üzvü oldu, dünyanın əksər dövlətləri ilə dostluq münasibətləri quruldu. Ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, qanunun aliliyinə təminat verən yeni Konstitusiya qəbul edildi, demokratik şəraitdə bir neçə dəfə Prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə əsaslı siyasi, hüquqi və sosial islahatlara başlanıldı. Şərq və müsəlman aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi və bir sıra digər tədbirlər dövlətimizin beynəlxalq aləmdə nüfuzunu xeyli artırdı. Cəmiyyətdə siyasi plüralizm üçün real şərait təmin edildi. Ən müxtəlif baxışları təmsil edən siyasi partiyaların fəaliyyətinə əlverişli şərait yaradıldı. Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyası hakim partiya və cəmiyyətin aparıcı siyasi qüvvəsi oldu. Milli mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı üçün lazımi tədbirlər görüldü. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı. Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı. Dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi ənənə halını aldı. Bu möhtəşəm işlərin reallaşdırılmasında Milli Məclis həmişə Ulu Öndərin yanında olub, onun uzaqgörən daxili və xarici siyasətini fəal surətdə dəstəkləyib.

"Heydər Əliyev dövlət başçısı olduğu dövrdə də parlamentə böyük diqqət və qayğı göstərib. 1995-ci il noyabrın 24-də Ulu Öndər birinci çağırış Milli Məclisin ilk iclasında iştirak edib, qanunvericilik orqanının üzvlərinə öz xeyir-duasını verib. Sonrakı dövrdə də Ulu Öndər parlamentin müxtəlif məsələlərə həsr olunan iclaslarında iştirak və çıxış edib. Azərbaycançılıq ideyası və hüquqi sistemin yaradılması məqsədilə Milli Məclis Ulu Öndərin təşəbbüsü ilə bir çox mühüm qanunvericilik aktları qəbul edib. Burada ilk növbədə yeni məcəllələrin - Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Seçki, Əmək, Ailə və digər məcəllələrin qəbulu xüsusi qeyd edilməlidir. Ümumiyyətlə, ölkədə əsaslı islahatların qanunvericilik mexanizminin yaradılmasına və təkmilləşdirilməsinə yönələn 1500-ə qədər qanun, qərar və digər aktlar Ulu Öndərin imzası ilə parlamentə təqdim edilib və geniş müzakirələrdən sonra qəbul olunub. Beləliklə, Azərbaycanın demokratik yolla ardıcıl inkişafı, hüquqi dövlət quruculuğu üçün bütün təminatlar yaradılıb", - deyə Milli Məclisin sədri qeyd edib.

Oqtay Əsədov diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi xidmətlər barədə belə deyib: "1993-2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur və bu gün də belədir. 1993-cü ildən başlanmış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir". Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti bu gün ciddi tədqiqatların mövzusudur. Ulu Öndərin zəngin irsinin öyrənilməsində və təbliğində Azərbaycan parlamenti də yaxından iştirak edir. Milli Məclisdə Heydər Əliyevin adını daşıyan xatirə zalı fəaliyyət göstərir. İndiyədək parlamentdə Ulu Öndərin fəaliyyətinin müxtəlif sahələrindən bəhs edən bir neçə kitab hazırlanıb nəşr edilib. Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində inkişaf edən Azərbaycan Respublikası bu gün geniş bir bölgədə söz sahibi olan güclü bir dövlətdir. Ölkəmizin getdikcə artan imkanları qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycan Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng transmilli layihələrin həyata keçirilməsində həlledici rol oynayır. Prezident İlham Əliyevin söylədiyi kimi, "bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır. Əminəm ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da gücləndirilməsinə yönəlmiş bu siyasət Azərbaycan xalqının maraqlarına tam cavab verir".

Sonra çıxış edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, sədr müavini Bahar Muradova, deputatlar Fəzail Ağamalı, Gövhər Baxşəliyeva, Zahid Oruc, Rafael Cəbrayılov, Rafael Hüseynov, Jalə Əliyeva, Aqiyə Naxçıvanlı, Elmira Axundova, Siyavuş Novruzov, Əhliman Əmiraslanov, Aydın Mirzəzadə, Şahin İsmayılov, Azay Quliyev, İsa Həbibbəyli, Nizami Cəfərov, Nəsib Məhəməliyev, Aydın Hüseynov, Məlahət İbrahimqızı ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışıblar. Bildirilib ki, müasir Azərbaycan dövlətinin qurulması və inkişaf etdirilməsi, azərbaycançılıq məfkurəsinin, ana dilimizin, milli mənəvi dəyərlərimizin qorunması və təbliği, ölkəmizin iqtisadi tərəqqisi və digər sahələrdə həyata keçirilən nəhəng işlərin bünövrəsi məhz böyük siyasi xadim Heydər Əliyev tərəfindən qoyulub. Bu xidmətləri sayəsində Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə möhtəşəm abidə ucaldıb. Sonra iclasda ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş sənədli film nümayiş etdirilib. Bununla da Milli Məclisin iclası öz işini başa çatdırıb.

# Ümummilli lider Heydər Əliyevə həsr olunmuş rəsm sərgisinin açılışı olub







***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş rəsm sərgisi açılıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsm sərgisinə baxıb.

Məlumat verilib ki, sərgidə 32 rəssamın Ulu Öndərə həsr olunmuş portretləri, Naxçıvan Muxtar Respublikasının tarixi abidələrini, təbiətini və müasir inkişafını əks etdirən mənzərə, natürmort, qarışıq kompozisiya janrlarında çəkilmiş 100-ə yaxın rəsm əsəri, eləcə də maket və dekorativ fiqurlar nümayiş olunur.

Azərbaycan Respublikasının Əməkdar Rəssamı Ülviyyə Həmzəyevanın "Naxçıvan bəşəriyyətin beşiyi", Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamlarından Həbibə Allahverdiyevanın, Həmzə Sadiqovun, Əli Səfərlinin Ümummilli Liderə həsr olunmuş əsərləri, Paşa Rəhimovun "Ümummilli Liderin mənzərə fonunda portreti", Eldar Zeynalovun "Mənalı ömür", Qəhrəman Tağıyevin "Naxçıvan", gənc rəssamlardan Arzu Novruzovun, Ləman Məmmədovanın, Tural Rəhimovun və digər rəssamların əsərləri maraqla qarşılanıb.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin muncuqla işlənmiş portretini Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə hədiyyə edib.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş sərgidə nümayiş olunan əsərlərin məzmun və xaraktercə düzgün seçildiyini, rəssamların Ulu Öndərə olan ehtiramının hər bir əsərdə ifadə olunduğunu bildirib, sərginin təşkilatçılarına və rəssamlara təşəkkür edib. Azərbaycan Respublikasının Əməkdar Rəssamı Ülviyyə Həmzəyeva rəssamların fəaliyyəti üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

# "Azərbaycan" nəşriyyatında şahmat turnirinin qalibləri mükafatlandırılıb

***Dünən "Azərbaycan" nəşriyyatında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə jurnalistlər arasında keçirilən ənənəvi şahmat turnirinin qalibləri mükafatlandırılıb.***







SİA-nın məlumatına görə, "Azərbaycan" nəşriyyatının, Azərbaycan Şahmat Federasiyasının, Milli Olimpiya Komitəsinin və Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının dəstəyi ilə keçirilən yarışın mükafatlandırma mərasimində "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin ölkə idmanının inkişafında misilsiz xidmətlərindən danışıb. O, Ulu Öndərin digər növlərlə yanaşı, şahmatın inkişafı, bu sahədə gənc istedadların yetişdirilməsi istiqamətində də böyük işlər gördüyünü vurğulayıb. A.Əsgərov Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O, qalibləri təbrik edib.

Təşkilat Komitəsi adından A.Əsgərova Azərbaycan Xalq Cumhuriyyətinin bayrağı əks olunmuş şərf və Azərbaycanın Dövlət Gerbi əks olunmuş medal hədiyyə edilib. "Azərbaycan" nəşriyyatının şöbə müdiri Afiq Vəlimətov bu turnirin 22-ci dəfə təşkil edildiyini, budəfəki yarışda 9 mətbuat orqanından 14 şahmatçının iştirak etdiyini deyib. Onun sözlərinə görə, "rapid" üsulu ilə təşkil edilən turnir Respublika Şahmat Mərkəzində beynəlxalq dərəcəli hakim Nurəli Məmmədzadənin hakimliyi ilə keçirilib. Qaliblər yalnız axırıncı - 9-cu turdan sonra müəyyənləşib. Dörd nəfər eyni - 7 xal topladığına və əmsallar da eyni olduğuna görə qalib elan olunublar.

Beləliklə, AZƏRTAC-ın əməkdaşı Ramiz Quliyev, "Metro" qəzetindən Rövşən Abbasov, "Azxeber.com" saytının əməkdaşı Mehdi Abbasov və "Sport-24.az" saytının əməkdaşı Ceyhun Əliyev birinci, veteran jurnalist Tofiq Ağayev ikinci, "Azərbaycan" qəzetinin əməkdaşı Ağali Məmmədov üçüncü olub. Yarışda fəal iştirakına görə, AZƏRTAC-ın müxbirləri Samirə Allahverdiyeva, Elvin Camalov, "Olimpiya Dünyası" qəzetindən Azər Əlizadə və digərləri təltif olunublar. "Azərbaycan" nəşriyyatının baş direktoru A.Əsgərov qaliblərə medal və diplom təqdim edib.

# Musa Quliyev: "YAP-ın bu təşəbbüsü cəmiyyətdə alqışlanan bir təşəbbüsdür"



***"Bu, çox humansit bir təşəbbüsdür. Bu nümunə təbliğ olunmalı və yayılmalıdır". Bu fikirləri yap.org.az saytına YAP Siyasi Şurasının üzü, Milli Məclisin deputatı Musa Quliyev YAP-ın təşkilatçılığı ilə 8 saylı Sanatoriya tipli İnternat Məktəbinin sakinlərinə keçirilən toy mərasiminə münasibət bildirərkən deyib.***

M.Quliyev bildirib ki, Ümummilli liderimiz Heydər Əliyev həmişə humansit siyasəti öndə tutub. Onun sözlərinə görə, cəmiyyətimizdə insanların bir-birinə kömək etməsi milli adət-ənənələrimizdən, dinimizdən gəlir.

"Bu, həm də dövlət siyasətidir. Bu gün valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göz önündədir. Ölkə Prezidentinin və Heydər Əliyev Fondunun qayğısı nəticəsində valideyn himayəsindən məhrum olmuş uşaqlar həyatın bütün çətinlikləri ilə baş-başa qalmırlar. Dövlətimiz lazımi dəstək və qayğını göstərir. Bu uşaqların təhsili, mənzil və işlə təminatı həmişə diqqət mərkəzindədir. Bu toy mərasimini də Ümummilli lider Heydər Əliyevin yaratdığı, Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiya öz üzərinə götürübsə, böyük xeyirxahlıq missiyasıdır. Bu gənclər partiyamızın övladlarıdır, sağlam gəncliyimizin nümayəndələridirlər. Hseab edirəm ki, YAP-ın bu təşəbbüsü cəmiyyətdə alqışlanan bir təşəbbüsdür. Digər ictimai-siyasi təşkilatlar da bu təşəbbüsü dəstəkləyib davam etdirməlidir. Biz insanları belə birləşdirə, sevindirə, xoşbəxlik bəxş edə bilərik. Bu toy mərasimi gənclərin əbədi olaraq yaddaşında qalacaq. Onlar öz hisslərini övladlarına, nəvələrinə danışacaqlar. Mən gənclərimizə xoşbəxtlik arzu edirəm"- deyə, M.Quliyev qeyd edib.

# "Heydər Əliyev və Müasir Azərbaycan"

## *Bu mövzuda Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyi münasibəti ilə "Səs" qəzetində dəyirmi masa keçirildi*

*(Əvvəli ötən sayımızda)*



"Səs" qəzeti, ənənəvi olaraq, Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında baş verən hadisələrlə bağlı dəyirmi masalar keçirir və tarixi olaylar, mövcud proseslərlə bağlı fikir mübadilələri apararaq, onları ictimaiyyətə təqdim edir.

"Səs" qəzetinin təşkilatçılığı ilə redaksiyanın ofisində xalqımızın Xilaskarı, dövlətimizin Qurucusu və Memarı, Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyi münasibəti ilə "Heydər Əliyev və Müasir Azərbaycan" mövzusunda növbəti dəyirmi masa keçirildi. Dəyirmi masada Ulu Öndər Heydər Əliyevin və mayın 8-də erməni hərbi birləşmələrinin işğalı zamanı qətlə yetirilmiş Şuşa şəhər sakinlərinin, o cümlədən, torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həyatlarını itirən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Dəyirmi masada YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə, YAP Siyasi Şurasının üzvü, millət vəkili Aydın Mirzəzadə, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, texnika elmləri doktoru, professor Mustafa Babanlı, Azərbaycan Dövlət Pedaqoji Univeristetinin rektoru, tarix elmləri doktoru Cəfər Cəfərov, YAP Siyasi Şurasının üzvü, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, eləcə də, fəal gənclər və media nümayəndələri iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin Baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə olunan uğurlardan, xalqın sosial rifah halının yaxşılaşdırılmasından, dövlətimizin dünyada yerinin və rolunun möhkəmlənməsindən söz açdı. Bildirdi ki, Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir: "Müstəqilliyimizin ilk illərinə diqqət yetirsək, ictimai-siyasi vəziyyətin gərginliyini və belə bir zamanda Azərbaycanın uçurum qarşısında olduğunu daha aydın görmək olur. Ölkədə xaos, anarxiya və özbaşınalıq baş alıb gedirdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın qarşısında yeni-yeni imkanlar açdı və uğurların təməlini qoydu".




B.Quliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətinin bu gün Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini vurğuladı: "Tədbirin gənclərin iştirakı ilə keçirməyimizin məqsədi budur ki, bura dəvət olunan qonaqlar öz dövlətçilik təcrübələrini gənclərin diqqətinə çatdırıb, o illərdə cərəyan edən hadisələrdə iştirakçı olduqlarından fikirlərini bölüşsünlər. Dəvət olunan dəyirmi masa iştirakçıları Ulu Öndərin fəaliyyəti ilə bağlı danışa biləcək canlı şahidlərdirlər".

B.Quliyev gəncləri Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Onun ictimai-siyasi fəaliyyəti ilə bağlı onları maraqlandıran suallarla tədbir iştirakçılarına müraciət etməyə dəvət etdi.

**CƏFƏR CƏFƏROV:**

- Ümummilli Lider Heydər Əliyevin həm sovet məkanında, həm də müstəqillik illərində ölkəyə rəhbərliyi dövründə bütün sahələrdə inkişaf, irəliləyiş özünü göstərmişdir. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı müstəqillik tariximizin təməlini möhkəmləndirdi. 1993-cü ildən sonra Azərbaycan dövlətinin dirçəlməsi, onun mövqeyinin və təməlinin möhkəmlənməsində Ulu Öndərin rolu əvəzsiz olmuşdur. Dahi Şəxsiyyət xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycanı bəxş etdi. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq, müstəqil bir dövlət kimi formalaşması Ulu Öndərin titanik siyasi fəaliyyətinin nəticəsidir. Azərbaycanın təxminən üç min illik tarixinə nəzər salsaq, görərik ki, bu dövrlərdə ölkəmizin, şərti olaraq götürsək, müstəqillik tarixi üçdə bir hissəsini əhatə edir. Ona görə də, biz müstəqilliyimiz dəyərini bilməliyik. Ötən əsrin əvvəllərində Azərbaycan müstəqilliyini bəyan etdi və 23 ay ərizində böyük işlər görmüş olsa da, sütunlarını möhkəmlədə bilmədi. Bu gün Azərbaycan 27 ilə yaxındır ki, müstəqillik tarixini yaşayır və bu illərdə böyük uğurlar qazanılıb. Təbii ki, bu, müstəqillik dövrünə qədər ölkəmizdə yaradılmış bazanın - iqtisadi, hərbi, kadr potensial və s. məntiqi nəticəsi idi. Bugünkü güclü, qüdrətli Azərbaycanı Heydər Əliyev yaradıb, onun müstəqilliyini yaşadıb, inkişaf etdirib və bütün dünyaya tanıdıb.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qısa bir müddət ərzində iqtisadi dirçəliş başlandı, terror cəhdləri və çevriliş cəhdlərinin qarşısı alındı, ordu yaradıldı, konstitusiya qəbul olundu, azərbaycançılıq ideyası yaradıldı və Azərbaycanda bu ideyanın çox uğurlu bir inkişafı başladı.

Ümummilli Liderin bizə ərməğan qoyub getdiyi zəngin irsi müstəqil Azərbaycan dövlətinin sütun dirəkləridir. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. 2003-cü ildən sonra Azərbaycanın inkişafında yeni bir mərhələ başladı. Yaradılmış baza üzərində Azərbaycanın daha sürətli inkişafı, dünya iqtisadiyyatına inteqrasiyası təmin olundu və Azərbaycan tamamilə yeni bir müstəviyə keçdi. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik siyasəti nəticəsində Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Həqiqətən də, Azərbaycan son 15 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Bu gün Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edir və dünyaya böyük dəyərlərini təqdim edir, səmimiyyətini və qonaqpərvərliyini göstərir. Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli dövlət proqramlarının qəbul və icra olunması hər bir bölgənin davamlı inkişafını təmin edib. Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir.

**BƏHRUZ QULİYEV :**

- Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu var. Azərbaycan gəncliyi müasir çağırışlara nə dərəcədə cavab verə bilir?

### BU GÜN İCTİMAİ-SİYASİ PROSESLƏRDƏ FƏAL İŞTİRAK EDƏN AZƏRBAYCAN GƏNCLİYİ MÜSTƏQİL DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİ YÜKSƏK TUTUR

**SEYMUR ORUCOV:**

- Dövlət-gənclər siyasətinin banisi xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın bugünkü və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Respublikaya rəhbərliyinin bütün dövrlərində Ulu Öndər sağlam gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə diqqət yetirirdi.

Ulu Öndərin ən böyük xidmətlərindən biri də o idi ki, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir və bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərinin biri kimi dəyərləndirirdi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti Sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirirdi. Minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilib. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyulub.

*Ardı Səh. 14*

# "Heydər Əliyev və Müasir Azərbaycan"

## *Bu mövzuda Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyi münasibəti ilə "Səs" qəzetində dəyirmi masa keçirildi*





Əvvəli Səh. 15

Bu siyasətin davamı olaraq Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə xüsusi önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırır. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi.

Bu gün ictimai-siyasi proseslərdə fəal iştirak edən Azərbaycan gəncliyi müstəqil dövlətçilik ənənələrini yüksək tutur. Dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi dövlət-gənclər siyasəti nəticəsində gənclərin müxtəlif sahələrdə fəal iştirakına şərait yaradılıb. Gənclərə ayrılan bu diqqətin və qayğının nəticəsidir ki, Azərbaycan gəncləri bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Göründüyü kimi, müasir dövrümüzdə gənclərin bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnmələri, peşə hazırlığının yüksəldilməsi məqsədi ilə, ardıcıl olaraq, tədbirlər həyata keçirilir. Sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən, gənc ailələrin problemlərinin həllinə köməklik göstərilir. Dövlət-gənclər siyasətindən irəli gələrək, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlər təşkil olunur, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakına, gənclər üzrə təşkilatların formalaşmasına və inkişafına diqqət yetirilir. Bu da, bir faktdır ki, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulmasına kömək göstərilir. Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanmaları da uğurla gedir. Bu gün gənclərimiz dünyanın bir çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da, beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. Bu təşkilatların istər Azərbaycanda, istərsə də ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Təbii ki, bu uğurlar asanlıqla əldə edilməyib. Müstəqilliyimizin ilk illərində ölkədə baş verən anarxiya və özbaşınalıq hər kəsə bəllidir. Gənclərin təhsilinə və inkişafına respublikada heç bir zəmin yaradılmırdı. Heydər Əliyevin hakimiyyətə qayıdışı və uzaqgörən siyasəti nəticəsində, bütün sahələrdə olduğu kimi, gənclərin inkişafına da yeni yollar açıldı və bugünkü gənc nəslin belə yetişməsi, məhz Ulu Öndərin siyasətinin nəticəsidir. Bu siyasət Azərbaycan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın durmadan inkişafı, dünya dövlətlərinə inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi yüksəliş kimi nailiyyətlər gəncliyin qarşısında prespektivlər açmaqla yanaşı, onları stimullaşdırır. Bu gün həyata keçirilən siyasət, uğurlu iqtisadi islahatlar və iqtisadiyyatın inkişaf tempi müasir gənclərin düşüncələrinin formalaşmasına birbaşa təsirini göstərir. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə, Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

**BƏHRUZ QULİYEV:**

- Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onun qorumaq, ondan da çətindir. Ulu Öndərin siyasətinin kökündə əbədi müstəqillik dayanır. Bu müstəqilliyin bünövrəsi 1969-cu ildə qoyulub. O mexanizm yaranmasa, o baza formalaşmasaydı, bugünkü müstəqilliyimiz əbədi ola bilməzdi.

### XX ƏSRİN 70-Cİ İLLƏRİNDƏN BAŞLAYARAQ, ELƏ BİR TARİXİ BÜNÖVRƏ YARADILDI Kİ, ONUN MÖHKƏM DAYAQLARI ÜZƏRİNDƏ GƏLƏCƏKDƏ MÜSTƏQİL AZƏRBAYCANIN QURULMASI MÜMKÜN OLSUN

**MUSTAFA BABANLI:**

- Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövr ərzində Azərbaycan özünün inkişaf mərhələsini yaşamışdır. Azərbaycanın Memarı və Qurucusu Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycanın Mərkəzi Komitəsinə Birinci Katib seçildiyi zaman respublikamız durğunluq dövründən çıxaraq, bütün sahələrdə inkişaf yolunu müəyyənləşdirdi. Ulu Öndər Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilməklə respublikanın tarixində çox mühüm bir mərhələnin əsasını qoymuşdur. Əksər göstəricilərə görə, İttifaqda ən son yerlərdən birində qərarlaşmış Azərbaycanda islahatların həyata keçirilməsi tarixi zərurətə çevrilmişdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra iqtisadiyyatın bütün sahələrinin, xüsusən də, sənayenin sürətlə inkişafının təmin olunması istiqamətində mühüm qərarlar qəbul edildi. XX əsrin 70-ci illərindən başlayaraq, elə bir tarixi bünövrə yaradıldı ki, onun möhkəm dayaqları üzərində gələcəkdə müstəqil Azərbaycanın qurulması mümkün olsun. Xalqımızın Dahi Oğlunun Azərbaycan üçün gördüyü bütün işlər müstəqillik illərində ölkəmizin başlıca dayaqlarını təşkil etdi. Kadr siyasətinə böyük önəm verən Heydər Əliyev gənclərin SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına önəm verirdi.

Müasir Azərbaycan tarixində müstəsna yeri olan və böyük iftixar və qürurla səsləndirdiyimiz 15 İyun Milli Qurtuluş Günü ölkə həyatında böyük ictimai-siyasi hadisədir. Qurtuluş günü Azərbaycanın gələcək inkişafının təməlini qoydu. Dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyan Azərbaycan, qısa bir zamanda uğurlara nail oldu. Bu inkişaf, bu tərəqqi, Azərbaycanın qüdrətinin artması, iqtisadiyyatının yüksəlməsi, insanların rifah halının yaxşılaşması Azərbaycanın Xilaskarı, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bağlıdır. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Xilaskar missiyası ilə Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Ümummilli Lider Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycan ən yeni tariximizin çətin anlarından şərəflə çıxdı və özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ suverenliyi qoruyub-inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir və uğurlar qazanır.

Artıq iyirmi yeddi ildir ki, Azərbaycan xalqı ictimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayır. Bu dövr ərzində Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında yer alıb. Sosial, iqtisadi, siyasi və mədəni sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Müstəqil dövlətimizin sürətli və ardıcıl inkişafına təkan verən bütün amillər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir.

**BƏHRUZ QULİYEV:**

- Ulu Öndər Heydər Əliyev XX əsrin Azərbaycana, xalqımıza, dünyaya bəxş etdiyi ən böyük Vətəndaş, Dahi Şəxsiyyət, Müdrik Siyasi Xadim və Əbədi Liderdir. Belə tədbirlərin keçirilməsi yetişən nəslə Ümummilli Liderin irsinin aşılanmasında böyük əhəmiyyət daşıyır. Qeyd edim ki, Ulu Öndər Azərbaycan tarixində, ilk dəfə olaraq, ölkəmizdə azərbaycançılıq ideyasını dövlətin siyasi ideologiyası səviyyəsinə qaldırmışdır. Ulu Öndər Heydər Əliyev bizə müstəqil dövlətimizi necə qorumağın lazım olduğunu öyrətdi. Heydər Əliyev bizə vətəni necə sevməyi, vətənpərvər olmağı öyrətdi. Xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn və Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Heydər Əliyev Ona göstərilən etimadı tez bir zamanda doğrultdu. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövlətin təməlinin sütunlarını möhkəmlətdi və əbədiləşdirdi. Ulu Öndər Heydər Əliyevin işləyib-hazırladığı inkişaf strategiyası Azərbaycanın dinamik inkişafına səbəb oldu.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Artıq hər kəsə yaxşı məlumdur ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda demokratik-hüquqi və dünyəvi dövlət-vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Azərbaycanın beynəlxalq nüfuzu möhkəmlənib, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail olunub. Azərbaycan dövləti milli mənafelərlə bağlı problemlərin həllində həssas və fəal yanaşma nümayiş etdirir. Azərbaycan dünyanın maraq dairəsinə daxil olub və geosiyasi platformada ölkəmiz güc və nüfuz sahibinə çevrilib. Respublikamızda siyasi-iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələrini icra edir, heç bir regional layihə Azərbaycanın iştirakı olmadan reallaşmır, ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib.

Ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi sevindirir və qürurlandırır. Bütün bunlar Ulu Öndər Heydər Əliyev təməlini qoyduğu inkişaf startegiyasının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Heydər Əliyev və insan hüquqları

***Ulu Öndər Heydər Əliyev hakimiyyətə ikinci dəfə gəlişi ilə insan hüquq və azadlıqlarının müdafiəçisi kimi çıxış etdi.***

Birincisi, Ulu Öndər insan hüquq və azadlıqlarının təminatının təcəssüm olunduğu Azərbaycan Konstitusiyasının yeni variantının qəbul edilməsinin təşəbbüskarı oldu.

İkincisi, insan hüquq və azadlıqlarının müdafiəsini təmin edən hüququ baza yaratdı.

Heydər Əliyevin 22 fevral 1998-ci il tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı insan hüquqları sahəsində ən mühüm sənədlərdəndir və bu sahədə ilk strateji sənəd kimi dəyərləndirilir. İnsan hüquqlarının müdafiəsinə dair bu ilk Dövlət Proqramında "İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması" da təsbit olunmuşdur.

Təqdirəlayiq haldır ki, ölkəmizin, müstəqillik əldə etdikdən sonra, qoşulduğu 250-dən çox beynəlxalq müqavilənin yarısından çoxu birbaşa və ya dolayısı ilə insan hüquqları ilə bağlıdır. Bu dövrdə həmin beynəlxalq hüquqi aktların əsas prinsiplərini özündə ehtiva edən həm milli qanunvericiliyimizin formalaşması, həm də bunların həyata keçirilməsi üçün zəruri institutlaşma tədbirləri baxımından zəngin olmuşdur. Belə zərurətdən doğan institutlardan biri olan Ombudsman təsisatının Azərbaycanda özülünün qoyulması və inkişafı da, bilavasitə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Konstitusiya statuslu qanununa görə əsas prinsipləri aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik olan Ombudsman tam müstəqil şəkildə ölkəmizdə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və demokratik idarəetmənin durmadan təkmilləşdirilməsi istiqamətində fəaliyyət göstərir.

Ulu Öndərimiz demişdir: "Respublikada bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi plüralizm, söz azadlığı və sahibkarlıq azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqi bərabərliyi təmin edilsin!" Özülünü qoyduğu bu dəyərləri müstəqilliyinin 25 illiyini qeyd etdiyimiz Azərbaycanda yaşadan ölkə başçısı İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir.

Təəssüf ki, yaşadığımız əsr bəşər tarixini milli və dini ədavətin qızışdığı, milli-dini zəmində qarşıdurmaların müharibə həddinə çatdığı, etnik təmizləmə ilə müşahidə olunan yüzillik kimi tarixə düşə bilər. Dünyada bir tərəfdə terror, müharibə və insan hüquqlarının kütləvi şəkildə pozulması ilə nəticələnən hadisələr, digər tərəfdə isə insan hüquq və azadlıqlarının təmin olunması, humanist dəyərləri özündə birləşdirən tolerantlıq, sülh, dözümlülük və multikulturalizm ideyaları özünə yer tutub. Ölkədə keçirilən seçkilərdə milli və etnik azlıqlar aktiv və passiv seçki hüquqlarından tam və sərbəst şəkildə istifadə edirlər. Bu gün parlamentdə və bələdiyyələrdə milli və dini azlıqların nümayəndələri də azad, şəffaf və ədalətli seçkilər nəticəsində seçicilərin səsini qazanaraq, həmin seçkili orqanlarda təmsil olunurlar. Beləliklə, dövlətin demokratik-idarəetmə sistemində səs verdiyi millət vəkilləri vasitəsilə qərar qəbul etmək səviyyəsində iştirak edirlər.

Etnik, dini və milli azlıqlara mənsub olan şəxslərin öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad etmək və onun ayinlərini icra etmək, habelə, doğma dilindən istifadə etmək hüququ vardır. Bu hüquqlar da ölkəmizdə tam şəkildə təmin olunur. Milli azlıqlar öz dillərində sərbəst şəkildə danışır, azad şəkildə öz dinlərinə etiqad edirlər, milli adət-ənənələrini, mədəniyyətlərini və mərasimlərini yaşadırlar. Məlum olduğu kimi, 2000-ci ildə ölkəmiz Avropa Şurasının "Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası"na da qoşulmuşdur. Bu Konvensiyaya əsasən, milli azlıqların və bu azlıqlara mənsub şəxslərin hüquq və azadlıqlarının müdafiəsi insan hüquqlarının beynəlxalq müdafiəsinin ayrılmaz tərkib hissəsidir və buna görə də, beynəlxalq əməkdaşlığın bir sahəsi hesab olunur.

Ölkəmizdə milli azlıqların ailə mədəniyyətinin qorunub-saxlanmasına, onların mədəniyyət festivallarının təşkil edilməsinə, milli-mədəni mərkəzlərinin yaradılmasına, icmalarının inkişafına xüsusi diqqət yetirilir. Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə milli azlıqların "Azərbaycan - doğma diyar" devizi ilə respublika festivallarının keçirilməsi artıq ənənə halını almışdır. Bu il də nazirlik tərəfindən ölkəmizdə yaşayan milli azlıqlara həsr olunmuş festival keçirilmiş, ölkəmizdə yaşayan azsaylı xalqların mədəniyyəti, tarixi, dini inancları, folklor örnəkləri, kulinariyası, musiqisi və müxtəlif sənət nümunələrindən ibarət sərgi nümayiş etdirilmişdir. Həmçinin, festivalda Qubanın Xınalıq kəndində yaşayan xınalıqlıların, Qırmızı qəsəbədən dağ yəhudilərinin, Qusardan ləzgilərin, Balakəndən avarların, Lənkərandan talışların, həmçinin, İsmayıllıda və başqa rayonlarda yaşayan azsaylı xalqların adət-ənənəsi, musiqisi və rəqsləri təqdim olunmuşdur.

Bununla yanaşı, milli azlıqların sənət nümunələri, bu irsin qorunub-saxlanılması və inkişafı sahəsində də zəruri tədbirlər görülür və dövlət tərəfindən dəstək verilir. Eyni zamanda, yazıçılar və alimlər tərəfindən milli azlıqlara dair elmi və bədii ədəbiyyatlar hazırlanmış və nəşr edilmişdir.

Ölkəmizdə şəhər və rayonlara proporsional büdcə ayrılmaları, Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı çərçivəsində görülən abadlıq-quruculuq işləri, yeni sosial, təhsil, sağlamlıq, turizm və istirahət obyektlərinin tikilməsi, həm də yeni iş yerlərinin açılması da onların da əmək hüquqlarının gerçəkləşdirilərək, işlə təmin olunmalarında mühüm rol oynayır. Bir misal kimi, milli və dini azlıqların sıx yaşadıqları Qusar rayonunda Şahdağ Turizm Kompleksinin tikintisi burada yaşayan insanların sosial-rifah halının daha da yaxşılaşdırılmasına böyük təkan vermiş və hətta xarici ölkələrdən çoxsaylı turistlərin buraya istirahət etmək üçün gəlmələrinə səbəb olmuşdur.

Belə misalları daha çox göstərmək olar. Bütün qeyd edilənlər, o cümlədən, milli azlıqların sıx məskunlaşdığı yerlərdə yeni məktəb və bağça binalarının, xəstəxanaların, diaqnostika mərkəzlərinin və başqa sosial obyektlərin tikilməsi real şəraitdə bərabər hüquqlara yanaşı, imkanların yaradılmasına xidmət edir. Bununla da, onların digər hüquqlara yanaşı iqtisadi, əmək və sosial hüquqları daha etibarlı şəkildə təmin olunur, hər kəs kimi dövlətin göstərdiyi xidmətlərdən, o cümlədən, tibbi xidmətlərindən tam şəkildə yararlanırlar.

Eyni zamanda, milli mədəniyyət və diyarşünaslıq muzeylərinin yaranması onların özünəməxsusluğunu yaşatmaq və xarici ölkələrdən gələnlərə nümayiş etdirmək imkanı yaradır.

Hüquqların bərabər şəkildə təmin olunması ilə yanaşı, Azərbaycanın gözəl xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, əhalisi polietnik, çoxmillətli olub, ölkədə 80-dən çox etnos heç zaman münaqişələr müşahidə olunmadan, mehribançılıq şəraitində yaşayır, bu faktlar Azərbaycanda azsaylı xalqların və etnik qrupların inkişafı üçün lazımi şəraitin yaradılmasını bir daha sübut edir və buna görə dövlətimizə öz minnətdarlıqlarını bildirirlər.

Tarixən Azərbaycanda yaşayan insanlar arasında milli və ya dini ayrı-seçkilik qoyulmamış və bu gün də qoyulmur. Tolerantlıq, milli-etnik dözümlülük, sıx əməkdaşlıq, bərabər imkanlarla iştirak milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Yüzilliklər boyunca, Azərbaycanda müxtəlif xalqlar vahid və mehriban bir ailə kimi yaşayaraq, bir-birinin dininə, inanc hislərinə, ibadətgahlarına hörmətlə yanaşmış və zəngin mədəni müxtəlifliklərini qoruyub-saxlamışlar.

Ulu Öndər Heydər Əliyev ölkədə tolerant mühitin formalaşmasında əsas rol oynamışdır: "Məlumdur ki, yüksək tolerantlıq, ilk növbədə, yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasına erkən yaşlarından başlamaq lazımdır. Ölkəmizdə yetişməkdə olan nəslin təhsil və maariflənməsində, müasir elmi-pedaqoji konsepsiyalar daxilində biz ünsiyyət mədəniyyətini, dini dözümlülük və əməkdaşlıq mədəniyyətini formalaşdırmağa cəhd göstəririk və ümumən desək, buna nail oluruq. Bunu demək çox asandır. Lakin gerçəkləşdirmək kifayət qədər mürəkkəb bir prosesdir".

Məhz insan hüquqları və ümumbəşər insani dəyərlər kontekstində bu cür tolerantlıq və sülh məfhumu bu gün bəşəriyyətin həllini gözləyən ən vacib problemlərindəndir. Yaşadığımız mürəkkəb sosial-siyasi hadisələrlə müşayiət olunan dövrdə qarşımızda duran ən mühüm məqsəd istər ailədə, istərsə də cəmiyyətdə, müxtəlif etnik qruplar, dövlətlər və millətlər arasında ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqdır. Başqa sözlə, hər zaman insanlar arasında sülh dəyərlərini yaymaq və sülh mədəniyyətini təbliğ etmək zərurəti vardır.

Akademik Ramiz Mehdiyevin fikrincə, Heydər Əliyev dünyanın coğrafi-siyasi xəritəsində Azərbaycanın yerini möhkəmlətmək, onun beynəlxalq nüfuzunun artmasına nail olmaqla yanaşı, həm də daxildə ictimai-siyasi sabitliyi qorumaq, "demokratik-hüquqi" dövlət qurmaq istiqamətində bir sıra mühüm addımlar atmışdır ki, bunların da ən əhəmiyyətlisi Yeni Konstitusiyanın hazırlanması oldu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası müstəqil dövlətin hüquqi əsaslarını müəyyən etdi və hüquqi dövlətə, vətəndaş cəmiyyətinə doğru cəsarətli və qətiyyətli addım oldu. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edildi. Konstitusiyada insan hüquq və azadlıqlarına həsr olunmuş maddələr onun ümumi həcminin üçdə birindən çoxunu təşkil edir. Beynəlxalq hüquqi sənədlərdə və konvensiyalarda əksini tapmış bütün hüquq və azadlıqlar konstitusiyada öz əksini tapıbdır. İnsan və vətəndaşın hüquq və azadlıqlarını məhdudlaşdıran dəyişikliklər edilməsi, hər hansı bir maddənin bu ruhda təfsir edilməsi yolverilməz elan edilmişdir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olduğu bəyan edilmişdir. Burada insan hüquqları insanın mövcudluğu faktı ilə, onun təbiəti ilə şərtlənən meyar kimi qəbul edilmişdir. Konstitusiyanı tamamilə haqlı olaraq "insan hüquqları manifesti" adlandırmaq mümkündür.

Müasir şəraitdə hər bir dövlətin demokratik imici onun insan hüquqlarına münasibəti ilə müəyyən edilir. Dövlətin inkişafı, demokratiya və insan azadlıqları bir-biri ilə üzvi surətdə bağlıdır və biri digərini şərtləndirir. Demokratiya daim inkişafdadır və bu, dinamik prosesdir. Demokratik cəmiyyətdə insan hüquqlarının pozulması, nəinki cəmiyyətə qarşı yönəlmiş haldır, o, həmçinin, sosial və siyasi problem olmaqla, dövlətlə cəmiyyət arasında tarazlığın pozulmasına, cəmiyyətin özündə zorakılığa və münaqişələrə səbəb olur. Lakin hər bir şəxsin azadlığının hüdudları digər şəxsin azadlığı başlanan anda sona çatır. Şəxsiyyətin hüquq və azadlıqları arasında bir harmoniya mövcud olmalıdır. Hər hansı bir şəxsin hüquqlarının həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarmamalıdır.

Azərbaycan Prezidenti tərəfindən insan hüquqlarının təminatının genişləndirilməsi sahəsində atılmış mühüm addımlardan biri də ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində görülən mühüm işlərdən biridir. Şərq aləmində ilk dəfə Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi və quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut etdi. Beynəlxalq Amnistiya Təşkilatı Azərbaycanda ölüm cəzasının ləğvinə gedən yolu digər ölkələr üçün nümunə kimi göstərmişdir.

Ölkəmizdə aparılan hüquqi islahatlar ciddi konsepsiyaya söykənir və onun əsasında inkişaf elmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda, Azərbaycan xatqının dövlətçilik tarixi və ənənələri dayanır. Hüquqi islahatların konsepsiyası azad cəmiyyətin formalaşmasına, demokratik-hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaratmışdır. Respublikamızda hüquqi islahatların sistemli və ardıcıl surətdə aparılması məqsədilə 1996-cı ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Son illərdə 10-dan artıq yeni məcəllə və 1000-ə yaxın qanun qəbul edilmiş və bu qanunlar inkişaf etmiş Avropa ölkələrinin hüquq sistemlərinə tam uyğundur.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 11 may


## "Tufan" tipli sərhəd-gözətçi gəmisi xidməti-döyüş fəaliyyətinə başlayıb

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən qəzetimizə verilən məlumata görə, aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin baxış keçirdiyi Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilmiş S-205 nömrəli "Tufan" tipli sərhəd-gözətçi gəmisi may ayının 10-da Xəzər dənizinə endirilmiş və xidməti-döyüş fəaliyyətinə başlamışdır.



Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, neft-qaz hasilatı və daşınması infrastrukturunun etibarlı mühafizəsinin təşkili üzrə mühüm vəzifələri yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti-döyüş imkanlarının gücləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bu tədbirin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradıcısı, Azərbaycan sərhəd mühafizəsi strategiyasının müəllifi Dahi Öndər Heydər Əliyevin 95 illik yubileyinə təsadüf etməsi bu günü daha da əlamətdar etmişdir.

Ümummilli Lider Heydər Əliyev dövlətçiliyinə hər zaman sadiq olan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında hər bir döyüş tapşırığını böyük şərəflə yerinə yetirməyə hazır olan Azərbaycan sərhədçiləri tərəfindən yeni sərhəd-gözətçi gəmisinin xidməti-döyüş fəaliyyətinə başlaması böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibəti ilə Naftalan şəhərində tədbir keçirilib



Naftalan şəhərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibəti ilə ümumşəhər tədbiri keçirilib. Şəhər rəhbərliyi, şəhərin hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri Heydər Əliyev Parkında Ulu Öndərin abidəsi önünə tər çiçək dəstələri düzərək, Dahi Şəxsiyyətin xatirəsini böyük ehtiramla yad ediblər. Sonra əl işlərindən ibarət sərgiyə baxış keçirilib.



Heydər Əliyev Mərkəzində davam etdirilən tədbirdə şəhər icra hakimiyyətinin başçısı Natiq Aslanov "Ulu Öndər və Azərbaycan" mövzusunda geniş məruzə ilə çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açıb. Tarixə öz adını əbədi həkk etmiş dahi Şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrildiyini, Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olduğunu bildirib.

Sonda məktəblilərin ifasında "Daim parlayan Günəş" adlı kompozisiya nümayiş etdirilib.

***ZÜMRÜD***

## ELAN

ADPU-nun Filologiya fakültəsinin I kurs tələbəsi Ələkbərova Gülnarə Qabil qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Daşkəsənlilər Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini andılar



Dünən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, YAP üzvlərinin, ağsaqqallar və ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzülmüş, Ümummilli Liderin nurlu və işıqlı xatirəsi böyük ehtiramla yad edilmişdir.

Tədbir iştirakçıları Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən fotolara və eksponatlara baxış keçiriblər. Ümumrayon tədbiri rayon icra hakimiyyətinin iclas zalında davam edib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycan inkişafı və müstəqilliyi naminə gördüyü işlərdən, apardığı mübarizələrdən bəhs edən "Böyük ömrün anları" filmi nümayiş etdirilib.

Daha sonra Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Dahi Lider haqqında geniş nitq söyləyərək, müasir Azərbaycanın memarı, qurucusu və xilaskarının ölkəmiz üçün tarixi, əvəzsiz xidmətlərindən, respublikamızın sabitliyi və dinamik inkişafında qoyduğu bünövrədən danışıb. Qeyd edilib ki, bu gün ölkəmizin bütün dövrlərdə ən müdrik dövlət başçısı, görkəmli siyasətçi, müasir Azərbaycanın qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 95-ci ildönümüdür: "Düz 95 il bundan əvvəl Qədim Naxçıvan torpağında dünyaya göz açmış Heydər Əliyevin böyük ürəyi həyatının bütün dövrlərində həmişə Azərbaycan xalqı üçün döyünmüş, o, vətənə xidməti özünə daim borc bilmişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müstəqil Azərbaycanı, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır".

Əhəd Abıyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Cənab İlham Əliyev haqqında dediyi sözlərin böyük bir həqiqət olduğu bu gün real həyatda öz təsdiqini tapmışdır: "Ötən 15 ildə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, müasirləşməsi, doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər Ulu Öndərin müəyyən etdiyi siyasi kursun davamından başqa cür qiymətləndirilə bilməz. Ölkəmizin dünya birliyində, beynəlxalq aləmdə öz yerini daha da möhkəmləndirməsi, məhz Heydər Əliyevin zəngin ictimai-siyasi irsinin və ideyalarının yeni dövrün tələblərinə uyğun yaşadılmasının nəticəsidir. Son 15 ildə ölkə iqtisadiyyatı dünya dövlətləri üçün rekord həcmdə - 3,2 dəfə artıb və iqtisadiyyatımıza 230 milyard dollardan artıq sərmayə qoyulub".

***Afət TAHİRQIZI***

## Oğuzda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə elmi-praktik konfrans keçirilib





Dünən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Oğuz rayon Mədəniyyət Mərkəzində elmi-praktik konfrans keçirilib. Tədbir iştirakçıları, ilk öncə Dahi Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyaraq, xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Konfransı giriş sözü ilə açan Oğuz rayon icra hakimiyyətinin başçısı Eyvaz Qurbanov qeyd edib ki, bu gün xalqımız bütün həyatını Azərbaycan xalqının tərəqqisinə, yüksəlişinə və inkişafına həsr etmiş, Ümummilli Liderimiz, türk dünyasının Böyük Oğlu, dünya miqyaslı siyasətçi Heydər Əliyevin anadan olmasının 95 illik yubileyini təntənəli şəkildə böyük qürur hissi ilə qeyd edir. E.Qurbanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən, keçdiyi şərəfli ömür yolundan və siyasi fəaliyyətindən geniş söz açaraq, bu zəngin irsin təkcə xalqımız deyil, bütün bəşəriyyət üçün böyük töhfə olduğunu qeyd edib. Sonra YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov "Müstəqil Azərbaycan Heydər Əliyevin xalqımıza ən böyük töhfəsi və əmanətidir", Oğuz rayon Mərkəzi Xəstəxanasının baş həkimi Anar Əzizov "Heydər Əliyev və Azərbaycan səhiyyəsi", Oğuz rayon Gənclər və İdman İdarəsinin rəis müavini Şaiq Rüstəmov "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" mövzularında məruzələrlə çıxış ediblər. Daha sonra respublika ümumtəhsil məktəblərinin şagirdlərinin iştirakı ilə keçirilən "Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş ən yaxşı təqdimat" müsabiqəsində II yerə layiq görülmüş Oğuz şəhər 2 saylı tam orta məktəbin şagirdi Əsmər Sərkərova, eləcə də, rayonun ümumtəhsil məktəbləri arasında keçirilmiş kross qaçışı, güləş yarışı və velosiped yarışı qaliblərinə qiymətli hədiyyələr təqdim olunub.

***ZÜMRÜD***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500